AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

# UNEC ŞƏHİDLƏRİ




BAKI 2021

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

# UNEC ŞƏHİDLƏRİ

*Kitab UNEC Rektorunun 8 yanvar 2021-ci il tarixli 5/1/2021 nömrəli əmri ilə təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində çap edilmişdir.*

BAKI - 2021





***Bu müharibəni şəhidlərimizin canı, qanı hesabına, hərbçilərimizi şücaəti hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq... O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Şəhid
# Milli Qəhrəman
# Şükürov Şahlar Əvəz oğlu

17 may 1952-ci ildə Kəlbəcər rayonunun
Zülfüqarlı kəndində anadan olmuşdur.





UNEC-in «Plan-iqtisad» fakültəsinin məzunu

# Şəhidin universitet həyatı

Şahlar Şükürov 1972-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki UNEC) bitirib, hərbi xidmətə gedib. 1986-cı ildə Rostov Ali Polis Akademiyasını bitirib.

# Şəhidin döyüş yolu

Ordudan tərxis edildikdən sonra Ucar rayonu  Daxili İşlər Şöbəsində çalışıb. Zərdab rayonunda rəis müavini vəzifəsində çalışan Şahlar mayor rütbəsi alıb. 11 iyul 1990-cı ildə Tərtər-Kəlbəcər yolu ilə hərəkət edən maşın karvanı Ağdərə ərazisində ermənilərin qəfil hücumuna məruz qalan zaman qeyri-bərabər döyüşdə qəhrəmanlıq nümayiş etdirərək həlak olub.



# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 nömrəli Fərmanı ilə polis mayoru Şükürov Şahlar Əvəz oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Kəlbəcər rayonunun Zülfüqarlı kəndində dəfn olunub. Zərdab rayonunda adına məktəb və küçə var.

# Şəhid
# Milli Qəhrəman
# Mirzəyev Yusif Əli oğlu

23 may 1958-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Böyükdüz kəndində anadan olmuşdur.





UNEC-in «Uçot-iqtisad» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Yusif Mirzəyev 1975-ci ildə İ.Səfərli adına 1 saylı Naxçıvan şəhər orta məktəbini bitirmişdir.





# Şəhidin universitet həyatı

Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüaftı İnstitutunda (indiki UNEC) təhsil alıb. 1987-ci ildə həmin institutun «Mühasibat uçotu» fakültəsini bitirib.

# Şəhidin əmək fəaliyyəti

Yusif Mirzəyev universiteti bitirdikdən sonra bank sektorunda müfəttiş vəzifəsində işləmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra Naxçıvan Rabitə Qovşağında işləməyə başlamışdır.

# Şəhidin döyüş yolu

Yusif Mirzəyev 1988-ci ildə Xalq Hərəkatına qoşulub. 1990-cı ildə 20 Yanvar faciəsi baş verdiyi vaxt, xalq etirazlarına qoşulduğu üçün Bakı şəhər komendantı tərəfindən həbs edilir.

1991-ci ildə düşmənə qarşı vuruşmaq üçün könüllü olaraq cəbhəyə gedir və Goranboy, Ağdərə istiqamətlərində döyüşlərdə iştirak edir. O, cəmi 14 nəfərlik dəstəsi ilə bir çox əməliyyata qatılır, Ağdərənin 17 kəndinin işğaldan azad edilməsində yaxından iştirak edir. Döyüşlərin birində mühasirəyə düşən dəstəni itki vermədən xilas edir.

“Allahdan bir arzum var, biz əl içi kimi birləşsək, bizim qabağımızda heç bir texnika da dura bilməz” deyib, cəbhə yoldaşlarını cəsarətləndirən Yusif Mirzəyev səmimi münasibəti və fədakarlığı ilə qısa müddətdə seçilən hərbçilərdən biri olub.

Həbsdə böyrəyindən aldığı zədələr ona döyüşməyə mane olur və bir müddət xəstəxanaya yerləşdirilir.

Cəmi 14 nəfərlə düşmənin çox sayda əsgərinə qarşı müqavimət göstərir. Hətta, erməni tərəfi həmin yerdə böyük bir taborun olduğunu düşünür.

Yusif Mirzəyevin ən məşhur sözlərindən biri də ona hərbi qüvvələrin az olduğu, döyüşün təhlükəli olduğu və sair deyilərkən işlətdiyi bu ifadələrdir:

“Bu qoşunla biz əks hücuma keçəcəyik, qırılan qırılacaq, girov düşən də özünü gülləyəcək o qədər”...

1993-cü il fevralın 19-da Ağdərədə gedən qeyri-bərabər döyüşlərin birində Yusif Mirzəyev Azərbaycan əsgərlərini mühasirədən çıxararkən şəhid olur. Şəhid Naxçıvanda dəfn olunub.









# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin 27 mart 1993-cü il tarixli 495 saylı Fərmanı ilə Mirzəyev Yusif Vəli oğluna ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib. Naxçıvan şəhərində orta məktəblərdən biri və Bakının 44 saylı orta məktəbi şəhidin adını daşıyır.

QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Cəbizadə Əbil Qədir oğlu

26 fevral 1993-cü ildə
Sumqayıt şəhərində anadan olmuşdur.



UNEC-in «Texnologiya və dizayn» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Əbil Cəbizadə 2000-ci ildə Sumqayıt şəhərinin Corat qəsəbəsindəki 7 nömrəli tam orta məktəbdə 1-ci sinfə başlamış və 2011-ci ildə həmin məktəbi bitirmişdir.

Məktəb vaxtında növbəli şəkildə idmanın müxtəlif növləri ilə (kimboks, boks, karate, cüdo) məşğul olmuşdur. Müəllimlərinin xatirəsində daim çalışqan və tərbiyəsi ilə fərqlənən nümunəvi şagird kimi qalmışdır.












# Şəhidin universitet həyatı

Əbil Cəbizadə 2011-ci ildə 311 balla Azərbaycan Dövlət İqtisad Universitetinin «Texnologiya və dizayn» fakültəsinin «Çoxişlənən malların texnologiyası mühəndisliyi» ixtisasına qəbul olunmuş, 2015-ci ildə ali təhsilini uğurla başa vurmuşdur.

# Şəhidin əmək fəaliyyəti

Bir qohumunun yanında usta köməkçisi işləyib. Sonra Sumqayıtda yerləşən Şüşə İstehsalı Zavodunda, Winter Park hoteldə, Bakıda tikilən bankın binasında elektrik ustası işləmişdir.



# Şəhidin döyüş yolu

Əbil Cəbizadə 2015-ci ilin oktyabr ayında hərbi xidmətə yola düşüb. Silahla mükəmməl davranışına görə baş atıcı vəzifəsinə təyin olunmuşdur. 2016-cı il aprel ayında baş verən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə fəxri fərmanla təltif edilmişdir. 2016-cı ilin oktyabr ayında hərbi xidmətini başa vurmuşdur. 2020-ci il 21 sentyabr tarixdə təlim və məşq toplanışına çağırılmışdır. 27 sentyabr 2020-ci il tarixdə qəfil başlamış əks-hücum əməliyyatlarında iştirak etmiş, Tərtər, Füzuli, Cəbrayıl rayonlarında, xüsusilə də Xudafərin körpüsünün işğaldan azad olunmasında iştirak etmişdir. 14 oktyabr 2020-ci il tarixdə Xocavənd ərazisində döyüş əməliyyatı zamanı Şəhidlik zirvəsinə yüksəlmişdir.

27 yaşlı şəhid Əbil Cəbizadə Sumqayıtın Şəhidlər Xiyabanında böyük izdihamla dəfn olunmuşdur.

Tər-Tər, Füzuli, Cəbrayıl rayonlarının, xüsusilə də Xudafərin körpüsünün işğaldan azad olunmasında böyük qəhrəmanlıqlar göstərmişdir. Onun əsgər yoldaşlarının dediklərinə görə Əbil düşmənlə mübarizədə yorulmaq bilməzdi . O, yaralı yoldaşlarını çiynində daşımış, ehtiyacı olanlara köməklik göstərmiş cəsur bir döyüşçü olmuşdur.








## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Cəbizadə Əbil Qədir oğlu ölümündən sonra «Vətən uğurunda» (15 dekabr 2020) və «Cəbrayılın azad olunmasına görə» (24 dekabr 2020) medalları ilə təltif edilmişdir.



# Şəhid
# Cəbrayılov Nazim İbrahim oğlu

2 mart 1949-cu ildə
Ağdam rayonunda anadan olmuşdur.



UNEC-in «Ticarətin iqtisadiyyatı» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Nazim Ağdam şəhər 1 nömrəli orta məktəbi bitirmişdi.

Futbol oynamağı çox sevərdi. Qubadlı rayonunda Əliyar Əliyevin komandasında oynayırmış. Məktəbin həm maddi, həm də mənəvi təchizində, tədbirlərində aktiv iştirak edirmiş.

1965-1966-cı tədris ilində 10 «a» sinfi vardı. Bu sinfin özünəməxsus ənənəsi və xüsusiyyətləri mövcud idi. Müəllimlərini doğma anaları kimi sevən bu sinfin uşaqlarını sanki çox böyük seçimlə toplamışdılar. Hər kəs xeyirxahlıq etməyə, daha yaxşı oxumağa can atırdı. Məktəbin o illərdə ən savadlı, ən dəcəl uşaqları bu sinifdə idi. Hər zaman Nazim uşaqların hər hansı günahı olanda öz üzərinə götürürdü. Yoldaşlarını özünəməxsus şəkildə qoruyarmış.







# Şəhidin universitet həyatı

Nazim 1966-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki UNEC) «Ticarətin iqtisadiyyatı» fakültəsinə daxil olub. 1970-ci ildə universiteti bitirmişdir.

Rus dilini mükəmməl bilirdi. Təhsilini bitirdikdən sonra savadı və biliyi ilə yoldaşlarından fərqləndiyi üçün ona Türkmənistan Respublikasının paytaxtı Aşqabad şəhərinə təyinat verirlər.

Nazim aktivliyi, çevikliyi və cəldliyi ilə fərqlənirdi. Səliqə-sahmanı ilə hər işdə müsbət mənada fərqlənməyə çalışırdı. Tələbə dostları ilə «Paraşüt meydan»nına gedəndə heç kim ürək edib paraşütdən tullanmazdı. Lakin Nazim düşünmədən paraşütlə tullanırmış. Güclü fantaziyası və yumor hissi olduğundan söhbətləri duzlu və maraqlı olar və ətrafdakıları özünə cəlb edərdi. Maraq dairəsi geniş, həyat eşqi tükənməz idi.

# Şəhidin əmək fəaliyyəti

İnstitutu bitirdikdən sonra təyinatla Türkmənistanın Aşqabad şəhərinə göndərilmişdi. Aşqabad şəhər DİŞ-nin SƏDM bölməsində işləmişdir.
Bir müddət işlədikdən sonra vətənə qayıtmış və 2711 nömrəli hərbi avtomobil dəstəsində hərbi mühəndis vəzifəsində çalışmışdır.
Daha sonra Kalininqrad Milis Məktəbində oxuyan Nazim Cəbrayılov ikinci ixtisas diplomu almışdır.

# Şəhidin döyüş yolu

1988-ci ildə Ermənistanın Azərbaycan torpaqlarına hücumundan sonra baş leytenant Nazim Cəbrayılov Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi üçün hərbi xidmətə yollanmışdır. O, Müdafiə Nazirliyinin əmri ilə tağım komandiri təyin edilmişdir.

Ağdamın Cəvahirli, Kosalar, Salahlı, Kəngərli, Gülçülük-Göytəpə kədləri istiqamətlərində torpaqları yağı düşməndən qoruyurdu. Bura ən təhlükəli və qorxulu cəbhə bölgəsi idi. Çünki, Ağdam şəhərinə gedən magistral yol oradan keçirdi.

1993-cü ilin payız ayında, 1994-cü il aprelin 13-də göstərdiyi böyük hünər və şücaətdən sonra Nazim Cəbrayılov vaxtından əvvəl kapitan rütbəsinə təqdim edilmişdi. Lakin bu rütbəni daşımaq ona nəsib olmadı.

Həmin il – yəni 1994-cü il aprelin 18-i Cəvahirli kəndi uğrunda gedən döyüşlərdə Nazim Cəbrayılov və onun əsgərləri döyüşdə şəhid oldular. Ermənilər Nazim Cəbrayılovun cənazəsini ailəsinə verməyib.







Həyat yoldaşı Rahilə xanımın dediklərindən: Hər ikimiz ailə dostlarının övladlarıydıq. Böyüklərin məsləhəti ilə 1978-ci ilin aprel ayının 29-da ailə həyatı qurmuşduq. Nazim çox mükəmməl bir kürəkən idi. Aprel ayı gələndə çox sevinirdim. Valideynlərimiz bu qohumluğun bünövrəsini məhz bu ayda qoymuşdular. Lakin... Apreldə başlayan qohumluq neçə illərdən sonra elə aprel ayında da başa çatdı. Çünki atam da, Nazim də aprel ayında dünyadan köçdülər.

Şəhidimizdən yadigar 3 övladı qalıb: Fidan, Jalə və Orxan Cəbrayılovlar.

Həyat yoldaşı Rahilə xanım Azərbaycan Dövlət İqtisad Universitetində işləyir.



## Təltifləri

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Sərəncamı ilə Cəbrayılov Nazim İbrahim oğlu ölümündən sonra «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir.



# Şəhid
# Dadaşov Tural Sabir oğlu

24 avqust 1993-cü ildə
Bakı şəhərində anadan olmuşdur.





UNEC-in «Kommersiya» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Tural Bakı şəhəri, Nizami rayonundakı 210 saylı orta məktəbdə təhsil almışdır.

İbtidai sinifdə oxuduğu müddətdə seçilən şagird kimi şəkli şərəf lövhəsindən asılmışdı. «Tumurcuq» qəzetində haqqında yazılar çap olunmuşdu. Orta məktəb illərində riyaziyyat, coğrafiya fənnləri üzrə olimpiadalarda fəal iştirak etmişdir. Gənclər və İdman Nazirliyi tərəfindən təşkil olunan «Şahinlər hərbi idman oyunu»nun iştirakçısı olmuşdur.

Məktəbdə müəllimlər Turaldan ön sırada əyləşməsini istəyirdi. O, üzündən nur saçan, pozitiv və savadlı gənc olaraq daima xatırlanır. Sinif yoldaşlarına riyaziyyatdan vurma cədvəlinin öyrədilməsində dəstək olub. Rəsm istedadı ilə insanları heyrətləndirib. Müəllimləri isə Qarabağ mövzusunda dərs keçən zaman Tural Qarabağdan ürək dolusu danışarmış.







# Şəhidin universitet həyatı

Tural Azərbaycan Dövlət İqtisad Universitetinə 2011-ci ildə 472 balla qəbul olmuş və 2015-ci ildə oranı uğurla bitirmişdir. O, «Kommersiya» fakültəsinin «Kommersiya» ixtisasında təhsil almışdır.

Mütəmadi olaraq mühazirə və seminarlarda çox fəal iştirak etmiş, dərslərdə müəllim və tələbələrin hörmətini qazanmışdır. Tural vətənpərvərlik mövzusunda fikir mübadiləsi aparmağı sevər və fakültənin ictimai həyatında həmişə aktivlik göstərərdi.

Tələbəlik həyatında «Vendetta» komandası olaraq universitet üzrə futbol çempionatının qalibi, «Nə? Harda? Nə zaman?» intellektual oyununun fakültələr arasında 1-ci yerin sahibi və «Xəmsə» Intellektual oyununun fəal iştirakçısı olmuşdur.

Dostları qəhrəman şəhidimizi belə xatırlayır: «İlk dərs günündə Tural ilə müəllimin dialoqu bütün auditoriyanın diqqətini özünə cəlb etmişdi. O, özünün geniş dünyagörüşü, müdrik fikirləri, məsləhətləri ilə hər zaman yanımızda idi. Ünsiyyətcil, ürəyi yumuşaq, heç kimə ziyan verməyən, hər kəsə yardım etmək istəyən və tələbə dostlarını darda qoymayan bir gənc idi. Həmişə üzü gülürdü. Yaddaşlarımızda ancaq gülər üzü ilə qaldı.»

# Şəhidin əmək fəaliyyəti

Tural Flame Tower və Port Bakuda işləmişdir.





# Şəhidin döyüş yolu

Tural 2016-ci ilin aprel hadisələrində Tərtər rayonu Seysulan kəndi istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərərək şəhidlik zirvəsinə ucalmışdır.

Tural Dadaşov öz təmkini, savadı ilə xidmət etdiyi hərbi hissədə seçilirdi. Bölük komandiri deyirdi ki, Tural ləyaqətli, tərbiyəli və müdrik gənc idi. "Allah ona elə bir daxili gözəllik bəxş etmişdi ki, işığına yol getmək olardı. İlk günlərdən hiss etmişdim ki, çox bacarıqlıdır. Həmin gün əsgərlərdə yüksək döyüş ruhu olub. O döyüş ruhu isə bir günə formalaşmamışdı. O, uşaqlıqdan bizim torpaqların erməni işğalçılarından azad olunacağı bu anı gözləmişdi".

Şəhid Tural Dadaşov Bakı şəhəri, Suraxanı rayonu Qaraçuxur qəsəbəsində dəfn olunmuşdur.








## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dadaşov Tural Sabir oğlu ölümündən sonra «Hərbi xidmətdə fərqlənməyə görə» III dərəcəli medalı ilə və Dədə Qorqud Milli Fondunun Prezidenti tərəfindən «Dədə Qorqud Vətən Övladı» medalı ilə təltif edilmişdir.



QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Eyvazlı Məzdək Əli oğlu

26 fevral 1996-cı ildə
Bakı şəhərində anadan olmuşdur.





UNEC-in «Texnologiya və dizayn» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

2002-2013-ci illərdə Lökbatan qəsəbəsində yerləşən 288 saylı orta məktəbdə təhsil almışdır. Eyvazlı Məzdək orta məktəbdə oxuyarkən nümunəvi davranışına, fəal şagird olduğuna görə sinif yoldaşlarından fərqlənmişdir. Anası onunla bağlı xatirələrindən danışarkən deyir ki, məktəb illərində bir dəfə də olsun ondan şikayət gəlmirdi. Müəllimələri Məzdəkdən qürurla danışanda deyirdilər: «Hər zaman başını aşağı salıb, dərsləri ilə məşğul olur. Bizi heç vaxt incitməyib».











# Şəhidin universitet həyatı

Məzdək Eyvazlı 2013-cü ildə 293 balla Azərbaycan Dövlət İqtisad Universitetinə «Texnologiya və dizayn» fakültəsinin «Texnoloji maşın və avadanlıqlar mühəndisliyi» ixtisası üzrə daxil olmuş, 2019-cu ildə ali təhsilini başa vurmuşdur.

Məzdək universitet illərində özünə hörmət qazanmışdı. Tələbə dostları onun necə gözəl insan olduğundan ürəkdolusu danışırlar.

# Şəhidin əmək fəaliyyəti

Məzdək 2019-cu ildən «Azərsu» Açıq Səhmdar Cəmiyyətində işləyirdi.

## Şəhidin döyüş yolu

Şəhidin anası Gülnarə Eyvazova deyir ki, 26 fevralda anadan olan Məzdək hələ uşaqlıqdan Xocalı soyqırımını biləndən sonra doğum gününü heç vaxt qeyd etməyib. Cəbhəyə gedəndə isə çox sevincli idi.

2020-ci ilin iyul ayında Tovuz döyüşlərindən sonra elan edilən səfərbərliklə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə gedərək adını könüllü olaraq müharibəyə getmək üçün yazdırmışdı. 21 sentyabr 2020-ci ildə Məzdək bir neçə günlük hərbi təlim toplantısından sonra 27 sentyabrda başlayan Vətən Müharibəsinə yollanmışdır. Füzuli uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 29 oktyabr 2020-ci ildə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Şəhid Bakı şəhəri Lökbatan qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında dəfn edilmişdir.

44 günlük Vətən müharibəsinin ən ağır döyüşlərinin getdiyi Füzuli torpaqlarında şəhidlik zirvəsinə yüksələn Məzdək Eyvazlının cəbhəyə gedəndə bir amalı vardı: Şəhid dayısı İsfəndiyar Əsədovun qisasını almaq!







## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Eyvazlı Məzdək Əli oğlu ölümündən sonra «Vətən uğrunda» və «Xocavəndin azad olunmasına görə» medalları ilə təltif edilmişdir.



QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Əbilhəsənov İlqar Yusif oğlu

19 avqust 1967-ci ildə
Bakı şəhərində anadan olmuşdur.



# Şəhidin məktəb həyatı

İlqar Əbilhəsənov Bakı şəhəri Nəsimi rayonundakı 42 nömrəli tam orta məktəbdə təhsil almışdır. Hazırda həmin məktəb şəhidin adını daşıyır.










# Şəhidin universitet həyatı

İlqar orta məktəbi 1984-cü ildə bitirdikdən sonra hərbi xidmətə yollanmışdır. Hərbi xidmətini başa vurduqdan sonra isə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki UNEC) «Uçot-iqtisad» fakültəsinə qəbul olunmuşdur.

# Şəhidin əmək fəaliyyəti

Atası və qardaşı kimi hərbçi olmaq istəyən İlqar üç il əyani şöbədə oxuduqdan sonra axşam növbəsinə keçərək, milis orqanlarında işə başlayıb. V kursda oxuyanda Yasamal rayon milisində serjant vəzifəsində çalışıb. İki il sonra Oktyabr (indiki Yasamal rayonu) rayonu Polis İdarəsində serjant kimi fəaliyyət göstərib.

## Şəhidin döyüş yolu

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları Bakıya daxil olanda iş başında olan İlqar növbəsinin bitməsinə az qalmış, gecə saat 12 radələrində yaralanaraq xəstəxanaya aparılıb. Xəstəxanada cərrahiyyə əməliyyatı beş saat çəkib. Beş saatlıq cərrahiyyə əməliyyatı, əvvəl şam işığında, sonra isə qəzet yandırmaqla aparılmışdır. İlqar Əbilhəsənov yanvarın 22-də səhər saat 11-də əbədiyyətə qovuşmuşdur. Bakıda Şəhidlər Xiyabanında dəfn olunmuşdur.











QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Ələkbərov Əli Ələkbər oğlu

12 oktyabr 1985-ci ildə
Tovuz rayonunda anadan olmuşdur.



UNEC-in «İqtisadiyyat» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Şəhid Əli Ələkbərov 1992-2003-cü illərdə Bakı şəhərinin Binəqədi rayonunda yerləşən Famil İsgəndərov adına 157 saylı orta məktəbdə təhsil almışdır. Orta məktəbdə oxuduğu müddətdə nailiyyətlər əldə etmiş, müvəffəqiyyətlə təhsilini başa vurmuşdur.

Əli məktəbdə bütün sinif yoldaşlarının, müəllimlərinin rəğbətini qazanmışdır. Müəllimləri onu böyük tərbiyə və mənəviyyat nümunəsi olan bir şagird kimi xatırlayırlar. Əli hələ kiçik yaşlarından yüksək vətənpərvərlik hisslərinə malik bir yeniyetmə olmuşdur.









# Şəhidin universitet həyatı

Şəhid Əli Ələkbərov Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadiyyat» fakültəsində təhsil almışdır. 2007-ci ildə ali təhsilini başa vurmuşdur.

## Şəhidin ailə həyatı

Əli 2013-cü ildə ailə həyatı qurmuşdur. 1 qızı, 1 oğlu var.





## Şəhidin döyüş yolu

Universiteti bitirdikdən sonra 2007-2008-ci illərdə Şəki şəhərindəki N saylı hərbi hissədə həqiqi hərbi xidmətdə olub. 2020-ci ildə mənfur düşmənlərin vətənimizə olan hücumları artdığı zaman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Qismən səfərbərlik haqqında» Sərəncamının ilk günlərindən Əli könüllü olaraq vətənin müdafiəsinə qoşulur. Evdən çıxanda müqəddəs bayrağımızı özü ilə götürən Əli işğal altında olan torpaqları alıb, bu bayrağı ora sancmayınca evə dönməyəcəyini ailəsinə söz verir. Tərtər, Ağdam, Ağdərə istiqamətində gedən döyüşlərdə aktiv iştirak etmişdir.17 oktyabr 2020-ci ildə Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Döyüş yoldaşları onu cəsur döyüşçü kimi tanıyırdılar. Əlinin mülayim xarakteri, tərbiyəsi, düşmənə qarşı barışmaz olması və  cəsur döyüş yolu yaddaşlarda əbədi yaşayacaqdır.

Şəhid Xırdalan şəhərində Şəhidlər Xiyabanında dəfn olunmuşdur



# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əli Ələkbər oğlu Ələkbərov ölümündən sonra «Vətən uğrunda» (15 dekabr 2020) və «Cəsur döyüşçü» (20 dekabr 2020) medalları ilə təltif edilmişdir.








QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Əliyev Eldar Süleyman oğlu

13 fevral 1994-cü ildə
Bakı şəhərində anadan olmuşdur.



# Şəhidin məktəb həyatı

Eldar ailədə hamıdan kiçik idi və hamı ona xüsusi qayğı göstərib sevirdi. Çox şıltaq və dəcəl idi. 5 yaşında artıq yazmağı və oxumağı bacarırdı. Yaşıdlarından hər zaman danışığı, özünü aparması ilə seçilərdi.

Bakı şəhəri, Nizami rayonundakı 70 saylı pilot liseydə oxuyub. Əlaçı olduğu üçün şəkli şərəf lövhəsində olub. O, məktəbdə müəllimlərin və sinif yoldaşlarının sevimlisi idi.













# Şəhidin universitet həyatı

Eldar Əliyev 2011-ci ildə 595 balla Azərbaycan Dövlət İqtisad Universitetinin «Türk dünyası işlətmə» fakültəsinə «Biznesin idarə edilməsi» ixtisası üzrə qəbul olmuşdur. İdarəetmə, iqtisadiyyat, maliyyə, strateji idarəetmə fənlərinə marağı böyük idi. Buna görə müəllim və yoldaşları ilə birgə interaktiv dialoqlarda olmağı, keçirilən mövzuları müzakirə etməyi sevirdi.

Eldar 2012-ci ilin oktyabrında universitetdə fakültələrarası «Nə? Harada? Nə zaman?» yarışında birinci yeri tutub. 2013-cü ilin noyabrında «Breyn rinq» intellektual oyununda 1-ci yerə layiq görülüb. Xüsusən, breyn-rinq oyunlarında geridə olan komandaya qələbə qazandırmışdır. "Gənclər fondu"nun təşkil etdiyi «Tələbələrarası I iqtisadi biliklər olimpiadası»nın final mərhələsində də uğurlu mübarizə aparmışdır.

# Şəhidin əmək fəaliyyəti

22 May 2014/ASAN xidmət - Könüllü
12 İyun 2015-28 İyun 2015/BEGOC (Baku European Games Operation Committee) - Könüllü
2 Avqust 2014-27 Fevral 2015 Buta Insurance – Kiçik Sığorta Nümayəndəsi
01 Noyabr 2016-01 Fevral 2018/AZERBAIJANSUPERMARKET LLC
01 Fevral 2018-14 Mart 2019/AZERBAIJANSUPERMARKET LLC - Sifariş və əmtəə üzrə kiçik mütəxəssis
18 Mar 2019/ABSHERON Hotel Group - Satınalma mütəxəssisi vəzifələrində çalışmışdır.

2020-ci ildə Xarici məhsulların Bakıya gətirilməsi üzrə İnstagram üzərindən kiçik biznesə başlamış, lakin müharibəyə çağırıldığı üçün layihə yarımçıq qaldı.



**Əldə etdiyi nailiyyətlər haqqında məlumat**

- ACCA Qualified Student (F2 passed) – Sep 2016
- Coursera - Supply Chain Logistics – 1st part
- Coursera - Supply chain operations – 2nd part
- Coursera - Write Professional Emails in English
- Coursera - Food & Beverage Management
- https://eldaraliyev.blogspot.com/ adlı blog yaratmışdı.

# Şəhidin döyüş yolu

27 sentyabr 2020-ci ildən başlayaraq Füzuli, Hadrut və Cəbrayılın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Döyüş yoldaşı Zahid Əliyevin dediklərindən:

Müharibə başlayan gündən etibarən Eldar və digər döyüş yoldaşımız Rauf ilə münasibətimiz yaxşı formalaşdı. Birlikdə vuruşduq, birlikdə yemək yedik, müharibənin dəhşətinə birlikdə şahid olduq. Eldarın şəhid olmasından bir neçə gün əvvəl hərbi tapşırığı icra etmək üçün dağa qalxmışdıq. Dağda olduğumuz günlərdə, soyuq gecələrdə bir-birimizə arxalanıb üşüməməyə çalışırdıq. Bir qədər məsafədə eşidilən ermənilərin səsi bizi tətikdə olmağa məcbur edirdi və həmçinin çətin vəziyyətdə döyüş tapşırığını həyəcanla gözlədiyimizdən yatmaq da mümkün olmurdu.

Eldar Əliev 13 oktyabr tarixində Hadrut döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 18 oktyabr 2020-ci ildə Bakı şəhərində, Əhmədli qəsəbəsi qəbiristanlığında dəfn olunmuşdur.

Dünyaca məşhur «Nyu-York Tayms» qəzeti İkinci Qarabağ Müharibəsi haqqında olan məqalələrindən birində Eldar Əliyevin şəhid olmasından bəhs etmişdir.









## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əliyev Eldar Süleyman oğlu ölümündən sonra «Vətən uğrunda» və «Xocavəndin azad olunmasına görə» medalları ilə təltif edilmişdir.



# Şəhid
# Əliyev Etibar Allahverdi oğlu

6 may 1975-ci ildə
Bakı şəhərində anadan olmuşdur.



UNEC-in «Plan-iqtisad» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Etibar Əliyev 1982-1992-ci illərdə Səbail rayonundakı 162 saylı orta məktəbdə təhsil almışdır.

# Şəhidin əmək fəaliyyəti

Etibar Əliyev Azərbaycan dəmiryolu mətbəəsində fəhlə işləmişdir.

# Şəhidin universitet həyatı

1992-ci ildə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki UNEC) axşam şöbəsinə daxil olmuşdur.

# Şəhidin döyüş yolu

İnstitutun Plan-iqtisad fakültəsinin I kursunu bitirdikdən sonra, 1993-cü ilin iyun ayında könüllü olaraq, Azərbaycanın Milli Ordu sıralarına yazılıb. Ailənin tək oğul övladı olduğu üçün Etibar döyüş bölgəsinə göndərilməyib. Lakin dekabrın 19-da o, 14 əsgər yoldaşı ilə birlikdə könüllü olaraq, ön cəbhədə xidmət edən ordu sıralarına qoşulub. Etibar Gəncədəki N saylı hərbi hissə tərkibində qısa hazırlıq təlimləri keçdikdən sonra Goranboy istiqamətində gedən açıq döyüşlərə qatılıb. Etibargil Goranboyun Tapqaraqoyunlu və Tərtərin Cəmilli kəndi istiqamətində ağır itkilərlə müşayiət olunan döyüşlərdə Tərtərə qədər gəlib çıxa biliblər. Burada o, Tərtər batalyonuna daxil olub.

1994-cü il may ayında Tərtərin Qapanlı kəndində gedən döyüşlərdə başından qəlpə yarası alan Etibar ilkin tibbi yardım göstərilərək arxaya göndərilir. Döyüş səngiyəndən sonra ön cəbhəyə qayıdaraq döyüş dostlarını axtararkən ermənilər tərəfindən əsir götürülüb. 24 gün Şuşada əsir saxlanıldıqdan sonra, iyunun 4-də erməni əsirilə dəyişdirilib. Bakıda hərbi qospitala yerləşdirilən Etibar iyulun 10-da tibbi müdaxilələrə baxmayaraq, dünyasını dəyişib.

Etibar Əliyev Bakıdakı II Şəhidlər Xiyabanında dəfn edilib.

# Şəhid
# Əsədli Əsəd Mahir oğlu

17 iyun 1995-ci ildə
Bakı şəhərində anadan olmuşdur.





UNEC-in «Distant, qiyabi və əlavə təhsil» mərkəzinin tələbəsi

# Şəhidin məktəb həyatı

Əsəd Bakı şəhəri Nizami rayonundakı 229 nömrəli tam orta məktəbdə oxuyub. Məktəb illərində çox ağıllı, savadlı və həssas bir şagird olub, onun 9-cu sinfə qədər şərəf löhvəsində şəkili olub.

Müəllimləri hər zaman ondan öz razılıqlarını bildirib. Şeir yazmağa böyük həvəsi olub, gözəl şeirlər yazarmış.







# Şəhidin universitet həyatı

Əsəd 2012-ci ildə 384 balla Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olmuş, amma fənlərdən yaranan akademik borcları səbəbi ilə 2016-ci ildə həqiqi hərbi xidmətə yollanmış, 2018-ci ildə hərbi xidmətdən qayıtdıqdan sonra yenidən təhsilini davam etdirmək üçün universitetə "Dünya iqtisadiyyatı" ixtisası üzrə bərpa olunmuşdu. 2020-ci ildə isə təhsilini qiyabi formada davam etdirmək məqsədi ilə Distant, qiyabi və əlavə təhsil mərkəzinin Qiyabi təhsil şöbəsinin «Dünya iqtisadiyyatı» ixtisasına köçürülmüşdür.

# Şəhidin əmək fəaliyyəti

Əsəd atası ilə bərəbər təmir-tikinti sektorunda çalışıb. Əsəd öz briqradalarında idarəçi vəzifəsində çalışırmış.

# Şəhidin döyüş yolu

Əsəd 2016-2018-ci illərdə Naxçıvanda həqiqi hərbi xidmət keçmişdir. Hərbi xidmət zamanı Əsəd hərbi kəşfiyyatçı kimi qulluq etmiş və qulluq müddəti ərzində 2 dəfə tərifnaməyə layiq görülmüşdür. 2020-ci ildə Tovuzda baş verən iyul hadisələri zamanı Əsəd də vətənpərvər bir gənc kimi doğma Azərbaycanımızın keşiyində durmağı özünə vətən borcu hesab etmiş və ordu sıralarına qatılmaq üçün könüllü qismində müraciət ünvanlamışdır.

Qarabağın azadlığı uğrunda Vətən Müharibəsi başladıqdan sonra, 2020-ci ilin sentyabrın 30-da könüllü olaraq döyüşə yollanmışdır. Deyirmiş ki, «mən burda qala bilmərəm, mən dözə bilmərəm, qisas almalıyam», Əsəd belə vətənpərvər oğul idi. Əsəd Bakı şəhərinin Nizami rayonu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən Gəncə şəhərinə yollanmış, 4000 nəfərin içərisindən 72 nəfər könüllü ilə birlikdə Şəmkirin 379 saylı hərbi hissəsinin həmlə taboruna qoşulmuş və oradan da Cəbrayıl, Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərə qatılmışdır. Əsəd döyüşlərdə misilsiz qəhrəmanlıq nümayiş etdirmiş, 20-dən çox erməni yaraqlısını məhv etmiş, döyüş yoldaşı ilə birlikdə erməni tankını zərərsizləşdirmiş və 21 əsgər yodaşının mühasirədən çıxarılmasını təmin etmişdir. Əsgər və zabitlərimizə ilkin tibbi yardım göstərilməsində şücaət göstərmişdir.



Əsədin döyüşdə olan dostları deyirlər ki, qəhrəman şəhidimiz hətta öz silah-sursatı bitdikdə belə geri qayıtmayıb. Yaralı əsgər yoldaşları bildirib ki, Əsəd öz canını təhlükəyə ataraq silahsız ermənilərin üzərinə gedərək düşmənin 7 hərbçisini əlbəyaxa döyüşdə məhv edib, onların «Ural" markalı maşınını ələ keçirərək yaralı yoldaşlarını xilas edib. Hərbçi yoldaşlarının sözlərinə görə, Əsədin hər sözü, hər kəlməsi Qarabağa sevgisindən idi. Əsəd dəfələrlə düşmənin silahlarını ələ keçirərək onların özlərinə qarşı öz silahları ilə vuruşmuşdur. 9 noyabr 2020-ci ildə Xocavənd uğrunda gedən qanlı döyüşlərdə Əsəd qəhrəmancasına şəhid olmuşdur. İgidlik salnaməsi yazan Əsədli Əsəd Mahir oğlu II Fəxri Xiyabanda dəfn olunmuşdur.















## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əsədli Əsəd Mahir oğlu ölümündən sonra «Vətən uğrunda», «Hərbi xidmətə görə», «Füzulinin azad olunmasına görə» və «Xocavəndin azad olunmasına görə» medalları ilə təltif edilmişdir.



QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Əsgərov Rəmzi Əsgər oğlu

21 yanvar 1967-ci ildə
Laçın rayonunda anadan olmuşdur.





UNEC-in «Plan-iqtisad» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Rəmzi Əsgərov orta məktəbi Laçında bitirib.

# Şəhidin universitet həyatı

Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüaftı İnstitutunun (indiki UNEC) «Plan-iqtisad» fakültəsində təhsil alıb.



# Şəhidin döyüş yolu

Rəmzi Əsgərov Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları başladıqdan sonra qiyabi şöbəyə keçərək, könüllü döyüşə yollanıb. O, Laçın milli batalyonunun döyüşçüsü və 811 saylı hərbi hissənin zabiti olub.

25 may 1992-ci ildə Laçının Güləbirt kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidimiz Beyləqan rayonunda dəfn edilib. O, şəhidlik zirvəsinə yüksələrkən V kurs tələbəsi olub.





QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Əsgərov Rüfət Qabil oğlu

29 yanvar 1997-ci ildə Rusiya Federasiyasının
Rostov şəhərində anadan olmuşdur.





UNEC-in «Biznes və menecment» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Rüfət birinci sinfi Rostov şəhərində bitirdikdən sonra 2004- cü ildə ailəsi ilə birlikdə Azərbaycana qayıdır. Bakı şəhəri Suraxanı rayonu Qaraçuxur qəsəbəsi S.Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın 2-ci sinfinə daxil olur. Şəkli məktəbin şərəf lövhəsində idi. Rüfətin ürəyi təmiz, mərd, zarafatcıl gənc olduğunu bütün məktəb yoldaşları bilirdi. Məhz bu xarakterlərinə görə müəllim və məktəb yoldaşlarının ürəyinə yol tapmışdı. Rüfət həmişə möcüzələrə inanırdı.







# Şəhidin universitet həyatı

Rüfət Azərbaycan Dövlət İqtisad Universitetinə 2015-ci ildə 382 balla qəbul olunmuş, 2020-ci ildə oranı uğurla bitirmişdir.

Rüfət «Biznes və menecment» fakültəsinin «Menecment» ixtisasında təhsil almış və oxuduğu müddətdə professor və müəllim heyətinin hörmətini qazanmışdır.

Rüfət Əsgərovun doğum günü münasibətilə «Biznes və menecment» fakültəsinin rəhbərliyi və kollektivi, UNEC Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri və fəal tələbələri şəhidin ailəsini ziyarət etmiş və Rüfətin diplomunu və eləcə də fəxri fərmanını anası Aynur xanıma təqdim etmişlər.

Rüfət Əsgərovun məzarı da ziyarət olunmuş və UNEC rəhbərliyi adından şəhidin məzarı önünə əklil qoyulmuş və əziz xatirəsi yad edilmişdir.

Universitetin idman klubunda futbol komandasının üzvü olub, həmişə çevik oyunu ilə yüksək nailiyyətlər qazanmışdır. Hər zaman zarafatı və pozitivliyi ilə seçilirdi.





# Şəhidin döyüş yolu

2020-ci ildə universiteti bitirdikdən sonra hərbi xidmətə yola düşüb. Xocəvənd, Qubadlı və Füzuli rayonlarının erməni təcavüzkarlarından azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Əsgər yoldaşları qeyd edirdilər ki, ön cəbhədə döyüş zamanı bir müddət susuz qalmışlar. Rüfət isə riski gözə alaraq ermənilərin ərazisinə daxil olub əsgər yoldaşlarına su tapıb gətirmişdir.

27 oktyabr 2020-ci ildə Şuşa uğrunda döyüşlərdə şəhid olmuşdur.

Rüfət Əsgərov Binə qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.








## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əsgərov Rüfət Qabil oğlu ölümündən sonra «Vətən uğrunda», «Xocavəndin azad olunmasına görə», «Füzulinin azad olunmasına görə» və «Qubadlının azad olunmasına görə» medalları ilə təltif edilmişdir.




QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Əzizov Habil Kommunar oğlu

19 yanvar 1968-ci ildə Ağstafa rayonunun
Vurğun qəsəbəsində anadan olmuşdur.





UNEC-in «Sənayenin iqtisadiyyatı» fakültəsinin məzunu



# Şəhidin məktəb həyatı

Habil Əzizov 1975-ci ildə indi özünün adını daşıyan Habil Əzizov adına Vurğun qəsəbə orta məktəbinin birinci sinfinə getmiş, 1985-ci ildə oranı əla qiymətlərlə bitirmişdir.





# Şəhidin universitet həyatı

Habil 1985-ci ildə Dadaş Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutuna (indiki UNEC) «Sənayenin iqtisadiyyatı» fakültəsinin «Maddi texniki təchizat iqtisadiyyatı və planlaşdırılması» ixtisasına qəbul olmuşdu. Bir il oxuyandan sonra 1986-cı ildə hərbi xidmətə yollanıb. Hərbi xidmətini Riqa şəhərində başa vurub. 1988-ci ildə Hərbi xidmətdən geri döndükdən sonra institutda təhsilini qiyabi formada davam etdirmişdir.

# Şəhidin əmək fəaliyyəti

Habil Əzizov Dadaş Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunda qiyabi təhsil almaqla yanaşı Ağstafada sovxoz idarəsində işləyirdi.

# Şəhidin döyüş yolu

Hadisə vaxtı qış imtahan sessiyası dövrü olduğundan Habil Bakıya gəlmişdi. Həmin günü ad günü idi. İmtahandan çıxıb əmisigilə gəlib. Orada əmisi ona ad günü süfrəsi açıb, ad gününü qeyd edirmişlər. Şəhərdə vəziyyətin qarışıq olduğunu bilməyən Habil bibisi oğlu Azərlə dostu Xanoğlanı ad gününə dəvət etmək üçün evlərinə gedib. Bu zaman Habilin və Azərin gözünə gur işıq düşüb. Həmin ərəfədə Azər qapağı açıq olan kanalizasiya quyusuna düşüb sağ qalıb. Habilin isə üzərindən tank keçdiyindən sifəti tanınmaz hala düşmüşdü.



**Habil Əzizovun anası Zinayə Əzizovanın xatirələri:**

«Habil buradan gedəndə dedi ki, ana imtahanları verib qayıdacam. Təhsilə çox üstünlük verirdi. Həm də gözəl gitara ifa edirdi. Həmişə də "Dünya sənin,dünya mənim, dünya heç kimin" mahnısını yanğı ilə ifa edirdi. Deyirdim, ay oğul, başqa ifa tanımırsanmı? O da deyirdi ki, ana, sən nə bilirsən, bu mahnıda nələr deyilir?! Habil əsgərlikdən gələndə mənə dedi ki, ana, mən tərxis olan gün bir qaraçı mənə dedi ki, sən 22 yaşında öləcəksən. Mən də güldüm keçdim ki, onsuz da yaranan bir gün öləcək. Allah şərəfli ölüm qismət eləsin. Mən də dedim, ay oğul, Allah qorusun, inanma fala-falçıya. Amma elə də oldu. Oğlum yanvarın iyirmisinə bilet almışdı ki, evə qayıtsın. Özü yox, tabutu qayıtdı.»

**Habil Əzizovun qardaşı Etimad Əzizovun xatirələri:**

«Habilə zəng elədim ki, qardaş, mənim nişanımdır gələrsən. Dedi, qardaş, bilet almışam ayın iyirmisinə, gözləyin, gələcəm. Xonçalar bəzəndi, hazır Habili gözləyirdik. Sabahı əmim zəng elədi ki, Habil şəhid olub, tank üzərindən keçib. Eləcə də xonçalarımıza qara bağlandı. Habil sözünə bütöv çıxdı həmişəki kimi. Yenə gəldi, amma cansız. Bu gün qardaşımın xatirəsini yaşatmaq üçün adını oğluma vermişəm".

**Habil Əzizovun əmisi oğlu Vüqar Əzizov bildirir:**

«Həmin gün, yəni yanvarın 19-da onun 22 yaşı tamam olurdu. Ad gününü əmisi oğlu Azər ilə qeyd etdi, sonra isə uşaqlar atəş səsi eşitdikləri üçün Salyan kazarması istiqamətində getdilər. Bu, Habilin xasiyyəti idi - o, günahsız insanların öldürülməsinə biganə qala bilməzdi. Azər evə gələnədək heç kəsin Habilin başına gəldiklərindən xəbəri yox idi. O, hər yerdən atəş səsi gəldiyini, Habili itirdiyini və başına nə gəldiyini bilmədiyini bildirdi. Özü də çətinliklə canını qurtarıbmış: tank insanları əzən zaman kanalizasiya quyusuna düşübmüş. O zaman, az qala, əmimiz İsgəndəri də güllələmişdilər. Habilin ölüm xəbərini biz 24 yanvarda aldıq. O gecə Habil güllələnmiş və tankla əzilmişdi.»

# Şəhid
# Hacımahmudova Qaratel Şəmsi qızı

18 avqust 1948-ci ildə Qazax rayonunun
Aşağı Əskipara kəndində anadan olmuşdur.



# Şəhidin məktəb həyatı

1956-1966-cı illərdə Aşağı Əskipara kənd orta məktəbində oxuyan Qaratel dərslərə böyük həvəslə hazırlaşırdı. 1966-cı ildə Bakı Sovet Ticarəti Texnikumuna daxil olub. 1968-ci ildə həmin texnikumu «Sənaye malları əmtəəşünaslığı» ixtisası üzrə bitirdikdən sonra 1970-ci ilə qədər Gəncə şəhər ticarət mərkəzində şöbə müdiri vəzifəsində işləyib.





# Şəhidin universitet həyatı

1970-ci ildə ali təhsil almaq üçün D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna sənədlərini verir və «Sənaye malları əmtəəşünaslığı» ixtisası üzrə Əmtəəşünaslıq fakültəsinin qiyabi şöbəsinə qəbul olunur. Tələbə yaşlarından iradəsi, qeyrəti, vətənpərvərliyi ilə seçilən Qaratel qiyabi təhsilini yaxşı qiymətlərlə başa vurub doğma Qazaxa dönür.

# Şəhidin əmək fəaliyyəti

1976-cı ildən 1991-ci ilədək Elmlər Akademiyasının Ceyrançöldə fəaliyyət göstərən Azərbaycan Neft Kəşfiyyatı İdarəsində laborant işləyib.
Qaratel kiçik-kiçik bayraqlar tikib hamıya paylayırdı. Qaratel azadlıq hərəkatında ən fəal xanımlardan idi. Çox vətənpərvər idi. 20 Yanvar faciəsindən sonra özünə yer tapa bilmirdi. Dövlətçilik ruhu bu qızın qanına, o cılız vücuduna elə hopmuşdu ku, bu yolda həyatını qurban verməyə hazır idi.

# Şəhidin döyüş yolu

1991-ci ildə Aşağı Əskipara kəndi erməni quldurlarının hücumlarına məruz qalanda Qaratel Aşağı Əskipara kəndində yaranan könüllü özünümüdafiə dəstəsinin tərkibində cəbhəyə yollandı. 14 iyun 1992-ci ildə Aşağı Əskipara kəndi düşmənin ağır hücumuna məruz qaldı və işğal olundu. Həmin döyüşdə Qaratel «Öldü var, döndü yoxdur!» deyərək, düşmənlə son nəfəsinədək döyüşür. Əsir düşmək təhlükəsi ilə üz-üzə qalan Q.Hacımahmudova düşmən əlinə sağ keçməmək üçün üzərində gəzdirdiyi zəhəri içərək, özünü güllə ilə vurur.

26 iyun 1992-ci ildə Qaratel Hacımahmudovanın cəsədi döyüşçü yoldaşlarının cəsədləri ilə birlikdə geri alınıb və o, 27 iyun 1992-ci ildə Şəhidlər Xiyabanında dəfn olunub. Qaratel Hacımahmudovanın adı Qazax şəhər ümumi orta məktəbinə və rayonun mərkəzindəki bulağa verilib.










## Təltifləri

Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə Hacımahmudova Qaratel Şəmsi qızı ölümündən sonra «Azərbaycan Bayrağı» (1994) ordeni ilə təltif edilmişdir.



# Şəhid
# Hacıyev Ülvi Şirin oğlu

13 noyabr 1994-cü ildə
Bakı şəhərində anadan olmuşdur.





UNEC-in «İqtisadiyyat» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Şəhid Ülvi Hacıyev Bakı şəhəri, Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində Rəsul Ənnağıyev adına 141 saylı məktəbi bitirib.

Ülvi məktəbdə çox yaxşı oxuyub. Çalışqan, məsuliyyətli, hər kəsə hörmətlə yanaşan bir uşaq olub. Dərslərinə çox ciddi yanaşardı və əla qiymətlərlə oxuyardı. Dərslərini yaxşı oxumaqla bərabər bir neçə il peşəkar üzgüçülüklə də məşğul olub və üzgüçülük yarışlarında 1-ci yeri qazanıb.

2001-ci ildə yol qəzasında ağır travma alaraq 21 gün komada qalan Ülvini həkimlər yenidən həyata qaytarmışdılar.







# Şəhidin universitet həyatı

Ülvi Hacıyev 2012 – ci ildə 319 balla Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadiyyat» fakültəsinə daxil olmuş , 2016 – cı ildə oranı bitirmişdir. Elə həmin ildə də Azərbaycan Dövlət İqtisad Universitetinin «UNEC Biznes Məktəbi»nə «Biznesin təşkili və idarə edilməsi» ixtisasının Maliyyə ixtisaslaşması üzrə qəbul olmuş və 2018 – ci ildə magistr təhsilini başa vurmuşdur.

Ülvi universitetdə çox yaxşı oxumuş- həm müəllimlərinin həm də tələbə yoldaşlarının dərin hörmətini qazanmışdır. Ülvinin itkin düşməsi xəbəri yayılanda onun bütün keçmiş tələbə yoldaşları, müəllimləri onun axtarılması üçün çox səy göstəriblər.

Noyabrın 13-də Ülvinin dostları olanlardan xəbərsiz onun doğum gününü, 26 yaşını təbrik etmək üçün onun Facebook səhifəsini təbrik mesajları ilə bəzəyirdilər. Ülvi isə oktyabrın 19-da Xocavənd rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur.

# Şəhidin əmək fəaliyyəti

Şəhid Ülvi Hacıyev 2019-cu ildən Vətən müharibəsinə yollanana qədər Dövlət Gömrük Komitəsinin Qərb Ərazi Baş Gömrük İdarəsinin Qırmızı Körpü sərhəd postunda müfəttiş vəzifəsində çalışıb.
29 yanvar 2021-ci ildə Dövlət Gömrük Komitəsinin «Azərterminalkompleks» Birliyinin inzibati binasında Ülvi Hacıyevin xatirəsini əbədiləşdirmək üçün büstü qoyulub.



# Şəhidin döyüş yolu

2018-2019-cu illərdə Ağcabədi rayonunda həqiqi hərbi xidmətdə olmuşdur.

2020-ci il sentyabrın 30-da könüllü olaraq Füzuli rayonunda gedən döyüşlərə qatılmışdır. Füzuli, Hadrut, Cəbrayıl rayonlarının azad edilməsində iştirak etmişdir.

2010-cu ildə şəhidlik zirvəsinə ucalan Milli qəhrəman Mübariz İbrahimovun göstərdiyi rəşadət Ülvinin həyatında dönüş nöqtəsi olub. Ülvi Hacıyev ömrünün hər anını vətən uğrunda döyüşlərə atılmaq, işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad etmək arzusu ilə yaşayıb. Onun bu arzusu Vətən Müharibəsi başlayanda həyata keçib.

2020-ci ilin iyulunda Ermənistanın Tovuz istiqamətindəki təxribatları zamanı general Polad Həşimovun və Azərbaycanın digər qəhrəman övladlarının şəhid olmasından çox təsirlənərək könüllü olaraq ordu sıralarına yazılan Ülvi sentyabrın 30-da cəbhəyə yollanıb və Füzuli, Cəbrayıl, Xocavənd rayonları və Hadrut uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərib.

19 oktyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində gedən döyüşlər zamanı ayağından yara alan yoldaşını xilas etməyə çalışarkən aldığı güllə yarasından qəhrəmancasına həlak olaraq şəhidlik zirvəsinə ucalmışdır.

Anası Həmidə  xanım deyir ki, Ülvi həmişə «Əgər şəhid olsam məni Mübariz İbrahimovun yanında dəfn edərsiniz» deyirdi. Şəhidimizin arzusu yerinə yetib – Ülvi Hacıyev hazırda Milli Qəhrəman Mübariz İbrahimovla eyni məkanda uyuyur.

Ülvi Hacıyev 19 oktyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində gedən döyüşlər zamanı həlak olmuşdur.II Fəxri Xiyabanda dəfn olunmuşdur.







## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Hacıyev Ülvi Şirin oğlu ölümündən sonra «Vətən Uğrunda» (15 dekabr 2020) medalı ilə təltif edilmişdir. 29 yanvar 2021-ci ildə Dövlət Gömrük Komitəsinin «Azərterminalkompleks» Birliyinin inzibati binasında Ülvi Hacıyevin xatirəsini əbədiləşdirmək üçün büstü qoyulmuşdur.




QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Heybətov Ağa Əmi
# Elçin oğlu

6 iyun 1993-cü ildə
Bakı şəhərində anadan olmuşdur.





UNEC-in «Türk dünyası işlətmə» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Ağa Əmi Bakı şəhəri Xəzər rayonunın Buzovna qəsəbəsindəki Əfqan Əliyev adına 125 saylı tam orta məktəbdə təhsil almışdır. 2000-2011-ci il məzunlarından idi. Əla qiymətlərlə oxuduğuna görə 2004-cü ildə tərifnamə ilə təltif edilmiş, 2004-cü ildə 4-cü sinfi əlaçı bitirdiyinə görə sertifikata, 2006-cı ildə futbol yarışında II yer tutduğuna görə fəxri fərmana layiq görülmüşdü. Hər fənnə xüsusi yanaşan Ağa Əmi məntiqi ilə seçilirdi. Təhsil aldığı müddətdə qiymətləri ilə hər kəsdən seçildiyi üçün şəkili «Şərəf lövhəsi»ndə vurulmuşdu. Ağa Əmi məktəb illərində, eyni zamanda Buzovna qəsəbəsinin Dini İcmasının nəzdində yerləşən İmam Hüseyn məscidinin mədrəsəsində «Qurani-Kərim» in tədris kursunu bitirmiş və şəhadətnamə almışdı. Heybətov Ağa Əmi 2002-ci ildə Buzovna qəsəbəsində yerləşən 4 nömrəli Uşaq İncəsənət Məktəbinə qəbul olunmuş, 2007-ci ildə qarmon kursunu bitirmişdi.

Şəhidimizin sinif yoldaşları deyir ki, Ağa Əminin səmimi münasibəti, xoş rəftarı, çalışqanlığı, ünsiyyətcil olması hamı tərəfindən sevilməsinə səbəb olmuşdur. O, hər yerdə öz sadəliyi, səmimiyyəti ilə seçilərdi. Çox səliqəli geyinər, dərslərinə məsuliyyətlə yanaşar, hazırcavab, zarafatcıl rəftarı ilə yoldaşlarından fərqlənərdi. Ad günlərindəki şənliklər, teatrdan gələrkən uşaqlarla yol boyu oxuduğumuz mahnılar, breyn-rinq bilik yarışları, sonu görünməyən həyəcanlar bir-birini əvəz edirdi. Yaşanan gözəl anlardan biri də səhər tezdən günəşi qarşılamağa gedərkən Ağa Əminin sevinci idi. Necə xoşbəxt idi. Qara qaynar gözlərində sönməz həyat eşqi vardı. Kim bilirdi ki,onu bu qədər tez itirəcəyik.











# Şəhidin universitet həyatı

Ağa Əmi 2011-ci ildə 375 balla Azərbaycan Dövlət İqtisad Universitetinin «Türk dünyası işlətmə» fakültəsinin «Turizm və otelçilik» ixtisasına qəbul olunmuş, 2015-ci ildə ali təhsilini başa vurmuşdu.

Tələbəlik illərində Ağa Əmi müxtəlif xarici dil kurslarına da yazılmışdı.

Elə universitetdə təhsil aldığı dönəmdə, yəni 2013-cü ildə Qafqaz Resort Hotel tərəfindən istehsalat təcrübəsi vaxtı göstərdiyi diqqət və məsuliyyətə görə sertifikatla təltif edilmişdir.

# Şəhidin əmək fəaliyyəti

Ağa Əmi 2016-cı ildə hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət özünün şəxsi biznesi ilə məşğul olmuş, daha sonra 2018-2019-cu illər ərzində «Veysəloğlu» MMC-də satış təmsilçisi vəzifəsində çalışmışdı. 2019-cu ildən etibarən isə Müdafiə Sənayesi Nazirliyi «Şərq» İstehsalat Birliyinin İqlim Elmi-İstehsalat Müəssisəsində proqramla idarə olunan dəzgah operatoru vəzifəsində çalışırdı.



# Şəhidin döyüş yolu

29 sentyabr 2020-ci ildə cəbhəyə yola düşmüş, Goranboy rayonu Ağuçuq yüksəkliyi istiqamətində döyüşlərdə iştirak etmişdir.

Ağa Əmi universitetdəki təhsilini bitirdikdən sonra həqiqi hərbi xidmətini çəkmək üçün 2015-ci ildə Gəncəyə yollanmışdı. 2016-cı ilin iyul ayının 2-də həqiqi hərbi xidmətini layiqincə başa vuraraq geri dönmüşdü. 2016- cı ildə könüllü şəkildə Aprel döyüşlərində iştirak etmişdi. Goranboy rayonu Ballı Qaya istiqamətində qəhrəmanlıqla döyüşmüşdü. Qeyd edək ki, Ağa Əmi ailə üzvlərindən bu döyüşdəki iştirakını gizlədir və 4 il sonra Aprel döyüşlərində könüllü iştirak etməsindən ailə üzvləri xəbərdar olurlar. Komandiri və əsgər yoldaşları arasında da böyük hörmət qazana bilmişdi Ağa Əmi. Yoldaşları deyir ki, biz ona Əmi olaraq müraciət edirdik. Birimizə nəsə olanda Ağa Əmi özünü oda-közə vurardı. Elə hiss edirdik ki, sanki anamız-atamız yanımızdadı.

Ağa Əmi 16 oktyabr 2020-ci il tarixdə Ağuçuq yüksəkliyində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

25 oktyabr 2020-ci il tarixdə Buzovna qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Müdafiə Sənayesi Nazirliyi «Şərq» İstehsalat Birliyinin «İqlim Elmi-İstehsalat Müəssisəsi»ndə Şəhidin xatirəsinə guşə yaradılmışdır.

525-ci qəzet və «Kaspi» qəzetlərində şəhid Ağa Əmi haqqında məqalələr dərc olunmuşdur.









# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Heybətov Ağa Əmi Elçin oğlu ölümündən sonra «Vətən uğrunda» medalı ilə təltif edilmişdir.



QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Həmidov Mixail Hamletoviç

18 dekabr 1983-cü ildə Almaniya Respublikasının
Potsdam şəhərində anadan olmuşdur.



# Şəhidin məktəb həyatı

Şəhid Mixail Həmidov 1991-ci ildə Bakı şəhəri Suraxanı rayonu P.İsmayılov adına 278 saylı tam orta məktəbin rus bölməsinə daxil olmuşdur, 1998-ci il dən 2001-ci il tarixinə kimi isə Bakı şəhəri Sabunçu rayonu F.Tağıyev adına 72 saylı məktəb-liseydə təhsil almışdır. Şəkli əlaçıların şərəf lövhəsində həmişə öndə olub. Çox zəkalı olub, dərs oxumağa çox da vaxt sərf etmirmiş. Məhz buna görə də valideynləri narahatçılıq keçirir, onu kitab əlində görmədikləri üçün danlayırmış. Oxumadığını zənn edərək müəllimləri ilə əlaqə saxlayanda onun yaxşı qiymət aldığını öyrənmişlər. Dəfələrlə belə halların baş verməsindən sonra aydın olub ki, Mixail dərsi tənəffüs zamanı oxuyurmuş. Ona görə də evdə ona «oxumamış alim» deyirlərmiş. Anasının dediyinə görə müxtəlif elektrik avadanlıqlarını, müəyyən texnikanı söküb-yığar, xırda təcrübələr aparmağı xoşlayırmış. Futbola böyük maraq göstərmişdir. Yetkin yaşında belə həftədə 2 dəfə futbol oynamağa vaxt ayırırmış.





# Şəhidin universitet həyatı

2001-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş 2005-ci ildə təhsilini başa vurmuşdur. 2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin «UNEC Biznes Məktəbi»nin «Biznesin idarə edilməsi» ixtisasının "Menecment" ixtisaslaşması üzrə daxil olmuş və 2015-ci ildə təhsilini başa vuraraq Biznesin idarə edilməsi üzrə magistr dərəcəsi almışdır.

Təhsil aldığı müddət ərzində imtahanlarda yüksək nəticələr qazandığına görə dəfələrlə «Təşəkkür» almış, mükafatlandırılmışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin futbol üzrə birinciliyində yüksək səy göstərdiyinə görə 3 dəfə fəxri fərmanla və medallarla təltif olunmuşdur. Leytenant Mixail Həmidov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 2005-2006-cı il tarixlərdə fəaliyyət göstərən xüsusi təyinatlı kəşfiyyatın tağım komandiri kursunu bitirmişdir. 2006-cı ildən respublikanın bəzi rayonlarında N saylı hərbi hissələrdə xüsusi təyinatlı qrup komandiri kimi xidmət göstərmişdir. 2008-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirinin müvafiq əmri ilə «baş leytenant» hərbi rütbəsi verilmişdir. 2008-ci ildə «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)» yubiley medalı ilə təltif olunmuşdur.

Xidmət etdiyi dövr ərzində özünü nizam-intizamlı, bacarıqlı bir zabit kimi göstərmiş, xidmətə münasibəti və məsuliyyəti, təşəbbüskarlığı yüksək qiymətləndirilmişdir. Bilik və bacarığını artırmaq üçün daim öz üzərində çalışmışdır. 2009-cu ildə ehtiyata buraxılmışdır.

# Şəhidin əmək fəaliyyəti

Şəhid Mixail Həmidov 2010-2016-cı il tarixlərdə «AGBank»ASC-də müxtəlif vəzifələrdə çalışmışdır. 2016-cı ildən «Xalq Bank» ASC-nin Mingəçevir filialının direktoru vəzifəsində işləmişdir. 2017-ci ildə Azərbaycan Bank Tədris Mərkəzi tərəfindən keçirilən «Bank Filialının Meneceri» proqramını müvəffəqiyyətlə bitirdiyinə görə sertifikatla təltif edilmişdir.



# Şəhidin döyüş yolu

7 oktyabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Müdafiə Nazirinin müvafiq əmrinə uyğun olaraq N saylı hərbi hissədə bölüyün kəşfiyyat komandiri vəzifəsinə təyin olunaraq 44 günlük Vətən müharibəsinə qatılmışdır. Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə dəfələrlə döyüş əməliyyatlarına qatılıb, öz vəzifə borcunu şərəflə yerinə yetirərək igidlik və şücaət göstərmişdir. Füzuli rayonu istiqamətində Ermənistan tərəfində olan bir neçə postun qısa müddət ərzində Azərbaycan tərəfinin nəzarəti altına keçməsində xüsusi rol oynayıb.

Vətən müharibəsində silah dostları tərəfindən «Mixaylo» ləqəbini qazanıb. Mixail rus, ingilis və erməni dillərini mükəmməl bilirdi. Yoldaşları onu «Mixaylo» - düşmənin dilini bilən kəşfiyyatçı adlandırırdılar. Mixail Həmidov 23 oktyabr 2020- ci il tarixdə Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. 24 oktyabr tarixdə II Fəxri Xiyabanda dəfn olunmuşdur.







2008-ci ildə ailə həyatı qurub. Mədinə, Yusif və Mələk adlı 3 övladı yadigar qalıb.





## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Həmidov Mixail Hamletoviç ölümündən sonra «Vətən Uğrunda» və «Füzulinin azad olunmasına görə» medalları ilə təltif edilmişdir.






# Şəhid
# Hüseynov Baxış Fərrux oğlu

19 oktyabr 1973-cü ildə
Beyləqan rayonunda anadan olmuşdur.





UNEC-in «Maliyyə - iqtisad» falütəsinin məzunu

# Şəhidin məktəb həyatı

Beyləqan rayonu Q.Namazəliyev adına Şərq kənd tam orta məktəbində təhsil almışdır. 1990-cı ildə Beyləqan rayonu Şərq kənd orta məktəbini əla və yaxşı qiymətlərlə bitirmişdir.

Ən yaxın dostu, sinif yoldaşı Nurəddin Baxışı belə xatırlayır: «Sinifdə 29 uşaq idik... Sinif nümayəndəmiz Baxış, həm də ən yaxşı oxuyanımız idi. Onun qarşısında çox işıqlı gələcək var idi. Çünki savadı və bacarığı ilə seçilirdi. Hamımıza nümunə idi. Kimin ağlına gələrdi ki, bu qədər həyatdolu bir insan cəmi iyirmi il ömür yaşayacaq? Məktəbi bitirən ili Baxış ali məktəbə qəbul olundu. Belə də gözləyirdik, çünki tək sinfin yox, məktəbin əlaçısı idi. Amma təhsilini yarımçıq qoyub, döyüşə yollandı. Nə deyim?! Mən onunla bağlı ancaq gözəl günlərimi xatırlayıram, çünki Baxışla birlikdə uşaqlığımızın xoş, qayğısız, unudulmaz günlərini yaşamışıq».

Beyləqanın Şərq kənd tam orta məktəbinin müəllimi Ülkər Mirzəliyeva isə tək onu yox, bütün şəhid şagirdlərini xatırlayır: «Uzun illər kənd məktəbində ədəbiyyat dərsi demişəm. Yüzlərlə məzunumuz olub, ancaq o oğulların... ömrü yarıda qırılmış o balaların üzünü bu gün də unutmuram...Baxış da onlardan biri idi. İftixar hiss ilə deyirəm ki, bütün məktəbin əzizi olan Baxış çox şərəfli ömür yaşadı. Şagird kimi bütün müəllimlərin sevimlisi idi. Özünəməxsus xarakteri ilə bütün yoldaşlarından seçilirdi. Onu həmişə səliqəli məktəb formasında görməyə alışmışdıq, sonra Bakıya oxumağa getdi, bir də gördük əsgər formasında kəndə qayıdıb. Şux qaməti, gözəl siması, elmə açıq zəkası və ağıllı baxışları var idi. Bu gün kəndimizin girişində şəhidlərin xatirəsinə ucaldılan lövhədə o yenə də ağıllı baxışları ilə gələnləri salamlayır. Və bu, həmişə də belə olacaq...»





# Şəhidin universitet həyatı

1990-cı ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki UNEC) «Maliyyə-iqtisad» fakültəsinə qəbul olmuşdur. Üç il «Maliyyə və kredit» ixtisası üzrə təhsil almışdır.

Baxış dərsləri ilə yanaşı, ictimai fəaliyyəti, eyni zamanda, xüsusi istedadı ilə də qrup yoldaşlarından fərqlənirdi. Ancaq Dağlıq Qarabağda müharibə alovlandıqda Baxış təhsilini yarımçıq qoyaraq, könüllü cəbhə bölgəsinə yollanmışdı.

# Şəhidin döyüş yolu

Xocavənd rayonu, Ağburun yüksəkliyində il yarım ən qaynar döyüşlərdə iştirak edən Baxış 1993-cü il sentyabrın 23-də düşmən hücumunun qarşısını almağa cəhd edərkən qəhrəmancasına həlak olmuşdur. Baxış Hüseynov öz ölümü ilə həm də səkkiz döyüşçü yoldaşının həyatını xilas etmişdir. Baxışın nəşini döyüş meydanından iki gün sonra tapmaq mümkün olmuşdur. Sentyabrın 25-də doğulub böyüdüyü Beyləqan rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Baxışın son döyüşü haqqında sinif və silah yoldaşı Nazim danışır: «23 sentyabr 1993-cü il... Biz öz mövqeyimizdə 8 nəfər idik... Tank səsini qəfil eşitdik... Komandir İsim Tapdıqov, mən və başqa bir əsgər səs gələn tərəfə getdik... Komandir digər uşaqları Baxışa tapşırdı... Biz təpəyə qalxanda mühasirəyə düşdük... Onda Baxış döyüşə atılıb, atəş açdı... Böyük məharətlə bizi mühasirədən çıxartdı... Özü isə... özü isə son damla qanına qədər döyüşdü... Gözümüzün qarşısında qəhrəmancasına həlak oldu...»










QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# İskəndərov Əhmədağa Novruz oğlu

20 sentyabr 1989-cu ildə
Bakı şəhərində anadan olmuşdur.



# Şəhidin məktəb həyatı

Əhmədağa Bakı şəhəri, N.Nərimonaov rayonundakı 82 saylı tam orta məktəbdə oxumuşdur. Məktəb illəri dövründə şahmat üzrə kurslara getmişdir. Şahmat oynamağı dərindən öyrənmiş, məktəblərarası yarışlarda iştirak etmişdir. Məktəbdə keçirilən olimpiadalarda nailiyyətlər qazanmışdır.

Məktəbdə bütün müəllimlərin sevimlisi idi. Həm oxumağı, həm də davranışı ilə hər kəsin rəğbətini qazanmışdır. İbtidai sinif müəlliməsi Elzarə müəllimənin ən sevimli şagirdi idi. Məktəbdə müəllimlərin ən çalışqan, ən savadlı şagirdlərindən biri olmuşdur.







# Şəhidin universitet həyatı

Əhmədağa İskəndərov 2007-ci ildə 614 balla Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olunmuş, 2011 –ci ildə buranı müvəffəqiyyətlə bitirmişdir.
Şəhid Azərbaycan Dövlət İqtisad Universitetində «Menecment» ixtisasına yiyələnmişdir. Təhsil aldığı müddətdə yüksək qiymətlər almış və professor-müəllim heyətinin böyük hörmətini qazanmışdır.
Unversitet illərində də öz fəallığı, savadı ilə seçilmişdir. Yaxşı oxuyaraq «əlaçı» təqaüdünə layiq görülmüşdür. Fakültənin və eləsə də universitetin ictimai həyatında fəal iştirak etmişdir.
Təhsil aldığı illər ərzində müəllim və tələbələrlə daim xoş ünsiyyəti olmuş, tələbə dostları ilə çox mehriban davranmışdır. Tələbə dostları həmişə onun haqqında çox xoş sözlər söyləyərək Əhmədağanın Vətənsevər bir gənc olduğunu deyirlər.

# Şəhidin əmək fəaliyyəti

Əhmədağa 2013-cü ildə «Veysəloğlu» şirkətində satış və distrübyutorluq sektorunda aparıcı mütəxəssis kimi çalışmışdır.
Bir müddət sonra «Veysəloğlu» şirkətinin «İnsan resursları əməliyyatları» şöbəsində bölmə müdiri vəzifəsində işləmişdir.
2018-ci ildən isə fəaliyyətini ölkənin önəmli restoranlarını özündə birləşdirən «Safron» restoranlar qrupunda baş mütəxəssis vəzifəsində davam etdirmişdir. İşlədiyi müddət ərzində də öz üzərində daim çalışmışdır. 2017-2018–ci illərdə bir neçə kurslarda iştirak etmiş, diplom və sertifikatlarla təltif edilmişdir.



# Şəhidin döyüş yolu

21 sentyabr 2020-ci ildə orduya çağrılmışdır. Füzuli, Cəbrayıl və Xocəvənd rayonlarının azad olunmasında iştirak etmişdir. Cəbhədə olduğu müddətdə öz çevikliyi və cəsarəti ilə döyüş yoldaşlarının və komandirinin böyük rəğbətini qazanmışdır. Belə ki, döyüşlərdə daim öndə olmuş və çoxlu sayda düşmən əsgərlərini məhv etmişdir. Hər qarış torpağımız erməni mənfurlarından alınaraq azad olunduqda Əhmədağanın gözlərindəki sevinc onda qələbə inamını daha da artırırdı. Cəbrayıl uğrunda gedən döyüşlərdə yaralanmış, 07.10.2020-ci ildə isə şəhidlik zirvəsinə ucalmışdır. 09.10.2020-ci ildə Kürdəxanı qəbristanlığında dəfn edilmişdir.





QARABAĞ AZƏRBAYCANDIR!



Əhmədağa 2018-ci ilin aprel ayında ailə həyatı qurmuşdur. 25 fevral 2019-cu ildə Nəsrin adlı qız övladı dünyaya gəlmişdir.



## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə İskəndərov Əhmədağa Novruz oğlu ölümündən sonra «Vətən Uğrunda» (15 dekabr 2020) və «Cəbrayılın azad olunmasına görə» (26 dekabr 2020)medalları ilə təltif edilmişdir.



# Şəhid
# Kazımlı Mürsəl Kamal oğlu

23 iyul 1992-ci ildə
Bakı şəhərində anadan olmuşdur.





UNEC-in "Uçot-iqtisad" fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

1999-cu ildə Kazımlı Mürsəl Kamal oğlu Pərviz İsmayılov adına 278 saylı orta məktəbin birinci sinfinə daxil olmuşdur.

2002-ci ildə 36 saylı musiqi məktəbinin tar sinfinə qəbul olmuşdur. 2007-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Musiqi məktəbində keçirilən bütün tədbirlərdə aktiv iştirak edirdi. Konsertlərdə orkestrlə birlikdə «Mart yallısı»nı ifa etmişdir. Bakı şəhər Mədəniyyət İdarəsi tərəfindən tərifnamə ilə təltif olunmuşdur. Orta məktəbi əla qiymətlərlə başa vurmuşdur. Biliyi, bacarığı, nizam-intizamı ilə müəllim və şagirdlərin hörmətini qazanmışdir. 2010-cu ildə həmin məktəbin məzunu olmuşdur.













# Şəhidin universitet həyatı

2010-cu ildə 613 balla Azərbaycan Dövlət İqtisad Universitetinin "Uçot-iqtisad" fakültəsinə daxil olmuşdur. 2014-cü ildə Universiteti zərbəçi qismində bitirmişdir. Universitetdə oxuduğu illərdə orada keçirilən krossvord yarışında 2-ci yeri tutmuşdur. 2014-cü ilin yayında hərbi xidmətə yollanmışdır. Hərbi xidmətini Gəncə, Naftalan və Tərtər artileriya korpusunda rabitəçi kimi başa vurmuşdur. Nümunəvi xidmət keçmişdir.

# Şəhidin əmək fəaliyyəti

2016-cı ildə 2 saylı Tibb Kollecində mühasib vəzifəsinə işə düzəlir. İşlədiyi qısa müddət ərzində müəllim və tələbələrin hörmətini qazanır. Kompüter biliyi ona tezliklə kollecdə şöhrət qazandırır. Hansı şöbədə kompüter işləmir, ona müraciət olunur. Bütün kollektiv ona bizim qardaşımız deyirdi. Bunları bizə kadrlar şöbəsinin müdiri söyləyib.

Daima öz üzərində çalışırdı.

Xobbisi müxtəlif cür kubik-rubikləri yığmaq idi.

Gələcəkdə maliyyə durumum imkan verərsə uşaq və qocalar evinə himayədarlıq edərəm – deyərdi.



# Şəhidin döyüş yolu

2020-ci ilin sentyabr ayının 28-də qismən səfərbərlik elan olunan kimi gecə saat 4-də Suraxanı Hərbi Komissarlığına çağırıldı. 3 gün Nasosnuda təlimdən sonra cəhbə bölgəsinə göndərildi. Əvvəlcə Füzuli istiqamətində, sonra isə Cəbrayıl və Zəngilan istiqamətində vuruşdu və bu adı çəkilən rayonların azad olunmasını gördü. Qorxmazlığı və vətənpərvərliyı ilə seçilirdi.

Kazımlı Mürsəl düşmənin atdığı minadan 23.10.2020-ci ildə Füzuli rayonunun Kürdlər kəndində qəhrəmancasına şəhid oldu. Mürsəl Dədə Qorqud məzarlığında yaradılmış Şəhidlər Xiyabanında dəfn olunmuşdur.







QARABAĞ AZƏRBAYCANDIR!






## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Kazımlı Mürsəl Kamal oğlu ölümündən sonra «Vətən uğrunda» və «Füzuli rayonunun azad olunmasına görə» medalları ilə təltif edilmişdir.





# Şəhid
# Qarayev Anar Çingiz oğlu

16 iyun 1998-ci ildə Qax rayonunun
Almalı kəndində anadan olmuşdur.





UNEC-in «İqtisadiyyat» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Anar Qarayev 2004-2015-ci illərdə Qax rayonu Almalı kənd məktəbində təhsil almışdır.

2013-cü ildə orta məktəbdə oxuyarkən nümunəvi davranışına, fəal şagird olduğuna görə Qax rayon Təhsil Şöbəsi tərəfindən tərifnamə ilə təltif edilmişdir. Adı şərəf lövhəsində olub.









# Şəhidin universitet həyatı

Anar Qarayev 2016-cı ildə 419 balla UNEC- in «İqtisadiyyat» fakültəsinə «İqtisadiyyat» ixtisası üzrə daxil olmuş və 2020-ci ildə ali təhsilini başa vurmuşdur.

# Şəhidin əmək fəaliyyəti

Anar Qarayev H.Əliyev adına Beynəlxalq Hava Limanında könüllü işçi olmuşdur. Yay ayları Azərbaycana gələn turistlərlə ünsiyyət yaradır, vətənimizin gözəl guşələrini gəzməyə aparırdı. Formula-1 yarışlarına gələn dostlarına üçrəngli bayrağımızı hədiyyə etmişdi.



# Şəhidin döyüş yolu

4 iyul 2020-ci ildə həqiqi hərbi xidmətə çağırılan Anar Qarayev 2020-ci il iyul ayının 10-da Goranboy rayonu N saylı hərbi hissəsində xidmətə başlamışdır. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 30 sentyabrdan Suqovuşan uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, oktyabrın 4-də Suqovuşanda qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 9-da Qax rayonu Almalı kəndindəki Şəhidlər Xiyabanında böyük izdihamla dəfn edilmişdir. Şəhidin şərəfinə yaylım atəşləri açılmışdır.

Döyüşçü yoldaşının Anar Qarayev haqqında xatirələri:

«Anar əsgərlik həyatına başladığı gündən özünü hamıya sevdirmişdi. Bilikli olduğu qədər də çox cəsarətli idi. O, qəhrəmanlıqla vuruşurdu. Ailənin nəsil davamçısı kimi sıradan bir oğul olmadığını sübut etdi. Suqovuşanda düşmənin atdığı mərmidən bəzilərimiz yaralandıq, Anar və başqa döyüşçülərimiz şəhid oldular. Anar tariximizi yaxşı bilirdi. O, Azərbaycan tarixinin hansı səhifəsindən istəsən diskussiya açır, isbatla, faktlarla şərh verirdi. Cəsarət və fəallığına görə o, batalyon komandirindən təltif də almışdı. O, fədaidir! Vətən uğrunda canından keçdi. Onun əziz xatirəsi hər zaman yaddaşımızda yaşayacaq.»

Əsl vətənpərvər gənc olan Anar Qarayev evdən ayrılarkən kövrələn atasına da bir söz verir. «Mən elə bir ali mərtəbəyə yüksələcəyəm ki, siz mənimlə hər zaman fəxr edəcəksiz, ata!». Sanki şəhadətini hiss edirmiş kimi qürurla, fəxrlə ailəsi və qohumları ilə görüşüb gedən Anar vədinə sadiq qaldı. Onun gedişi ərəfəsində mənfur düşmən yenə də öz təxribatlarını davam etdirməyə başlamışdı. Artıq səbri tükənən xalq yenə də həmrəy olaraq ayağa qalxıb Ali Baş Komandanın ətrafında sıx birləşmişdi.. 30 ilə yaxın işğalda olan Qarabağın azadlığı uğrunda savaş başlamışdı.



Şəhid Almalı kənd Şəhid Məzarlığında dəfn edilmişdir.

# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Qarayev Anar Çingiz oğlu ölümündən sonra «Vətən uğrunda» medalı ilə təltif edilmişdir.





QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Qarayev Süleyman Əlibağış oğlu

3 iyul 1995-ci ildə Sabirabad rayonunun
Qalağayın kəndində anadan olmuşdur.





UNEC-in «Maliyyə və mühasibat» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Süleyman 2001-ci ildə Sabirabad rayonu Əli Qurbanov adına Qalağayın kənd məktəbinə daxil olub. İbtidai təhsilini həmin məktəbdə alıb. Daha sonra Mirzə Ələkbər Sabir adına 1 saylı məktəbdə təhsilini davam etdirmişdir. 2012-ci ildə orta məktəbi yaxşı qiymətlərlə bitirmişdir. Riyaziyyatı mükəmməl bilirdi və ona görə riyaziyyat fənni üzrə olimpiadalarda iştirak etmişdir, 1-ci və 3-cü yerləri tutmuşdur. Sinifdə əlaçı olmuşdur.





# Şəhidin universitet həyatı

2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin «Mühasibat uçotu və audit» fakültəsinə 405 balla qəbul olmuş, 2016-ci ildə ali təhsilini başa vurmuşdur.

Qrupda ən aktiv tələbə olduğuna və yaxşı oxuduğuna görə onu qrup nümayəndəsi seçmişdilər. Həmçinin Həmkarlar İttifaqının fakültə üzrə sədri olmuşdur.

İngilis və rus dillərini bilirdi.

# Şəhidin əmək fəaliyyəti

Süleyman 2017-2018-ci illərdə Sabirabad rayonu MKT pambıq zavodunda, 2018-2020-ci illərdə «Azərsun»un Sabirabad filialında mühasib işləmişdir.
Microsoft Ofis proqramların əla səviyyədə, həmçinin mühasibatlığa aid olan C1 proqramını da mükəmməl bilirdi.



# Şəhidin döyüş yolu

21 sentyabr 2020-ci ildə Ağcabədidə hərbi təlimlərə qoşulub.

Ağcabədi və Ağdam arasında postda olublar, atası ilə telefonla danışanda deyib ki, ermənilər tərəfindən Ağcabədiyə muzdlu döyüşçülər hücum edir. Biz o hücumun qarşısını alırıq. Həmin o hücumların qarşısını alan zaman, 7 oktyabr 2020-ci ildə Ağcabədi rayonunun Qiyaməddinli kəndində şəhidlik zirvəsinə ucalmışdır.

Elə doğulduğu Sabirabad rayonunun Qalağayın kəndində dəfn olunmuşdur.



2017-ci ildə ailə həyatı qurmuşdur. 2 oğul övladı var. Kiçik oğlunun üzünü bircə dəfə görüb, hələ 3 günlük ikən hərbi təlimlərə getmişdir.





## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Qarayev Süleyman Əlibağış oğlu ölümündən sonra «Vətən uğrunda» medalı ilə təltif edilmişdir.



# Şəhid
# Quluyev Nofəl İlham oğlu

11 iyun 1994-cü ildə Gədəbəy rayonunun
Qoşabulaq kəndində anadan olmuşdur.





UNEC-in «Əmtəəşünaslıq» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Nofəl 2000-ci il sentyabrında 1 nömrəli Qoşabulaq kənd orta məktəbinin 1-ci sinfinə getmişdir. Oxuduğu müddətdə öz tərbiyəsi və mehribanlığı ilə müəllimlərin və şagirdlərin sevgisini qazanmışdır. Sinif yoldaşlarının da dərslərinə kömək edirdi. Nofəlin şəkli məktəbin «Şərəf lövhəsi»nə vurulmuşdu. Təhsilində əldə etdiyi nailiyyətə görə fəxri fərmanla təltif olunmuşdur.







# Şəhidin universitet həyatı

2011-ci il tarixdə Azərbaycan Dövlət İqtisad Universitetinin «Əmtəəşünaslıq» fakültəsinin «İstehlak mallarının ekspertizası və marketinqi» ixtisasına 360 balla qəbul olmuşdu. Məktəb vaxtlarında olduğu kimi tələbəlik dövründə də müəllimlərin və tələbə yoldaşlarının sevgisini qazanmışdır. Yaxşı qiymətlərlə oxuyan Nofəl təhsil aldığı müddətdə «Kimya» fənni üzrə keçirilən bilik yarışmasında 1-ci yeri tutmuşdu. O, universitetdə oxuduğu müddətdə də öz intizamı və tərbiyəsi ilə seçilirdi.

# Şəhidin əmək fəaliyyəti

Nofəl Veysəloğlu şirkətində ekspeditor, Gədəbəy çörək zavodunda operator, Slavyanka su sexində anbardar vəzifələrində işləmiş, kiçik bizneslə məşğul olmuşdu.



# Şəhidin döyüş yolu

Nofəl 2015-ci ildə universiteti bitirib hərbi xidmətə yollanmışdır. Xidmət etdiyi hərbi hissənin 1-ci motoatıcı taborun qumbaraatan manqasının baş qumbaraatan vəzifəsində xidmət etmişdir. Şəxsi heyət arasında hörmət qazanmışdır. 2016-cı ildə baş vermiş Aprel döyüşlərində iştirak etmişdir. Nofəl hələ Vətən müharibəsi başlamamışdan qabaq deyirdi ki, əgər mən bir gün öləcəyimi bilsəm, şəhid kimi ölmək istərdim. Çünki ondan şərəfli ölüm yoxdur.

Vətəninə olan böyük sevgisinə görə 29.09.2020-ci ildə Vətən müharibəsinin hərbi səfərbərliyinə könüllü olaraq getmişdir. Nofəl Füzulinin alınmasında iştirak etmişdir. Oktyabrın 18-də Cəbrayıl-Qubadlı istiqamətində gedən döyüşdə minamiyot qəlpəsindən ağır yaralanmışdır. Yüksəkkeyfiyyətli tibbi müdaxiləyə baxmayaraq 27.10.2020-ci il tarixdə 26 yaşlı Nofəl Quluyev şəhidlik zirvəsinə ucalmışdır. Oktyabrın 28-də doğulub boya-başa çatdığı Gədəbəy rayon Qoşabulaq kənd qəbiristanlığında dəfn edilmişdir.



## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Quluyev Nofəl İlham oğlu ölümündən sonra «Vətən uğrunda» və «Cəbrayılın azad olunmasına görə» medalları ilə təltif edilmişdir.








QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Qurbanov Elçin Çərkəz oğlu

6 avqust 1968-ci ildə Qərbi Azərbaycanın
Pəmbək mahalının Saral kəndində anadan olmuşdur.





UNEC-in «Maliyyə və kredit» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Elçin Qurbanov Bakı şəhəri Səbail rayonu 160 nömrəli orta məktəbdə təhsil almışdır. 1985-ci ildə orta məktəbi bitirmişdir.



# Şəhidin universitet həyatı

1985-ci ildə Bakı Dövlət Universitetinin "Fizika" fakültəsinə qəbul olunmuşdur. 1987-1989-cu illərdə Macarıstanda hərbi xidmətdə olmuşdur. Vətənə qayıdandan sonra Elçin ixtisasını dəyişmək qərarına gəlmişdir.

Elə həmin il birinci ali təhsilini yarımçıq qoyaraq Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüaftı İnstitutuna (indiki UNEC) daxil olmuşdur. «Maliyyə və kredit» fakültəsinin axşam şöbəsində təhsil almaqla yanaşı, bank sahəsində əmək fəaliyyətinə başlamışdır.

# Şəhidin əmək fəaliyyəti

Xüsusi savad və bacarıqlarına görə yaşıdlarından fərqlənən Elçin təhsil almaqla yanaşı ixtisası üzrə işləyir və qısa müdddətdə kommersiya  banklarından birində sədr müavini vəzifəsinə qədər yüksəlir.

# Şəhidin döyüş yolu

Elçin Qurbanov 1993-cü ildə, V kursda oxuyarkən, təhsilini və karyerasını yarımçıq qoyaraq, könüllü cəbhəyə yollanmışdır.  Ağdam, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

7 yanvar 1994-cü ildə Füzuli rayonunun Alxanlı kəndinin Bəytəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir.






# QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Məcidzadə Teymur Tehran oğlu

10 oktyabr 1992-ci ildə Füzuli rayonunun
Gecəgözlü kəndində anadan olmuşdur.





UNEC-in «Beynəlxalq iqtisadi münasibətlər» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Teymur Məcidzadə Bakı şəhəri Xətai rayonu 25 saylı orta məktəbdə təhsil almışdır.

Orta məktəbdə yüksək nailiyyətləri olmuşdur. Bir neçə dəfə Azərbaycan dili, Coğrafiya, Riyaziyyat fənləri üzrə olimpiadada 1, 2, 3-cü yerlərin qalibi olmuş, fəxri fərmanlarla təltif olunmuşdur. Məktəb rəhbərliyi 2-ci sinifdə oxuyanda Teymuru təhsilin yarısından bilik səviyyəsinə görə 3-cü sinfə keçirmək lazım olduğunu bildirmiş, ancaq valideynləri razı olmamışdır.

Anası Teymurun məktəb vaxtlarından bir xatirəsini bölüşür: «1-ci sinifdə qiymət vermirdilər, müəllim qiyməti balaca kağıza yazıb verirdi. Teymur bir gün sevincək, tələskən halda gəldi ki, yenə 5 aldım. Sevindim, dedim baxım qiymətinə... Birdən yadına düşdü ki, kağız müəllimdə qalıb, məyus olmuşdu».







# Şəhidin universitet həyatı

Teymur 2010-cu ildə 473 balla Azərbaycan Dövlət İqtisad Universitetnin «Beynəlxalq İqtisadi münasibətlər» fakültəsinin «Dünya İqtisadiyyatı» ixtisasına daxil olmuş və 2014-cü ildə ali təhsilini başa vurmuşdur.

# Şəhidin əmək fəaliyyəti

Universiteti bitirdikdən sonra Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarət Məntəqəsində həqiqi hərbi xidmətə başlamışdır.  Daha sonra öz işini hərbidə davam etdirmişdir. Hərbi xidmətini başa vurduqdan sonra yenidən hərbini seçdi və ikinci təhsil kimi hərbi məktəbdə oxuduqdan sonra N saylı hərbi hissədə leytenant–tağım komandiri kimi fəaliyyətə başlayıb. Hərbi rütbəsi baş leytenant idi.

# Şəhidin döyüş yolu

Azərbaycan Ordusunun leytenantı olan Teymur Məcidzadə 2020-ci il sentyabrın 27-də döyüşlərə yollanmışdır. Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Teymur Məcidzadə Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının, Şuşa şəhərinin işğaldan azad olunmasında iştirak etmişdir.

Teymur özünün doğulduğu Füzulinin Gecəgözlü kəndinə ilk ayaq basan və oranın azad olunmasında böyük şücaət göstərənlərdən biri olmuşdur. Teymur 104 nəfərdən ibarət şəxsi heyəti xəritə vasitəsilə döyüş bölgəsindən çıxardaraq mövqelərini dəyişməyə kömək etmiş və bu komandanlıq tərəfindən yüksək qiymətləndirilmişdir. Teymur Füzulinin, Cəbrayılın, Xocavəndin, Şuşanın azad olunmasında komandiri olduğu taborla birlikdə böyük şücaət göstərmişdir. Topxana meşəsi və Daşaltıdan döyüşə-döyüşə keçərək Şuşaya doğru getmişdir. 100-dən çox şəxsi heyətin həyatını xilas etmiş, döyüş bölgəsindən sağ-salamat çıxarmışdır. Şuşanın azad olunmasında xüsusi şücaət göstərmiş, qələbəyə saatlar qalmış Şəhidlik zirvəsinə ucalmışdır.

O, 8 noyabr 2020-ci ildə müharibənin bitməsinə saatlar qalmış Şuşa-Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Məcidzadə Teymur Tehran oğlu 9 noyabr 2020-ci ildə II Fəxri Xiyabanda dəfn edilmişdir.







## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Məcidzadə Teymur Tehran oğlu ölümündən sonra «Vətən uğrunda» (15.12.2020), «Cəbrayılın azad olunmasına görə» (24 dekabr 2020), «Füzulinin azad olunmasına görə» (25 dekabr 2020), «Şuşanın azad olunmasına görə» (29 dekabr 2020) və «Hərbi xidmətə görə» (30 dekabr 2020) medalları ilə təltif edilmişdir.






QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Məmmədov Bəhruz Tahir oğlu

7 sentyabr 1991-ci ildə Yevlax rayonunun
Xaldan kəndində anadan olmuşdur.



UNEC-in «Əmtəəşünaslıq» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

1998-ci ildə məktəbə başlayan Bəhruz Məmmədov 8 yaşında atasını itirərək nənə-babasının, onlar vəfat etdikdən sonra isə bibisinin himayəsində böyümüşdür. B.Məmmədov Xaldan kənd kompleks tam orta məktəbində oxuyarkən yüksək nəticələr göstərdiyinə görə imtahan verərək 2-ci sinifdən birbaşa 4-cü sinfə keçmişdir. Respublika üzrə gənc rəssamların müsabiqəsində 1-ci yerə layiq görülmüşdür. Fənn üzrə olimpiadalarda iştirak edib. Məktəb yaşlarında şairliyə meyilli olan Bəhruz təhsilindəki müvəffəqiyyətlərinə və ictimai fəaliyyətinə görə  Şöyübov Zahid adına təqaüdə layiq görülmüşdür. Bəhruz haqqında  «Kür» qəzetində məqalə də dərc olunmuşdur.











# Şəhidin universitet həyatı

2009-cu ildə Xaldan kənd kompleks tam orta məktəbini əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan Dövlət İqtisad Universitetinin «Əmtəəşünaslıq» fakültəsinə «İstehlak mallarının ekspertizası və marketinqi» ixtisası üzrə 571 balla qəbul olmuşdur. Tələbəlik illərində tərbiyəsi və yüksək bilik səviyyəsinə görə müəllimlərin və tələbə yoldaşlarının sevgisini qazanmışdır. Yaxşı qiymətlərlə oxuyan Bəhruz 2013-cü ildə bakalavr  təhsil səviyyəsini bitirdikdən sonra təhsilini magistraturada davam etdirmişdir. 6 xarici dil bilən Bəhruz, həm də bacarıqlı rəssam idi.

# Şəhidin əmək fəaliyyəti

Bəhruzun əmək fəaliyyəti ingilis dili kursları ilə bağlıdır. İngilis dilini çox gözəl bilməklə yanaşı, alman, rus və polyak dillərində də danışmağı bacarırdı. Poliqlot idi. Sonralar proqramçı işləməyə başlamış və veb-saytlar yığmışdı.

# Şəhidin döyüş yolu

2013-2014-cü illər ərzində həqiqi hərbi xidmətdə olarkən hərbi hissənin komandiri tərəfindən Təşəkkür məktubu ilə təltif edilmişdir.

Bəhruz Məmmədov 2020-ci ilin sentyabrın 28-də Yevlax rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən qismən səfərbərliyə çağırılıb, 5 oktyabrda isə döyüş bölgəsinə yollanmışdır. Füzulidə, Xocavənddə, Hadrutda və Qubadlıda gedən döyüşlərdə iştirak etmişdir. 5 noyabr 2020-ci il tarixdə Şuşa uğrunda gedən döyüşlər zamanı Daşaltı kəndində şəhid olmuşdur. Bəhruz Məmmədov Yevlax rayonunun Xaldan kəndində dəfn olunmuşdur.





# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Məmmədov Bəhruz Tahir oğlu ölümündən sonra «Vətən uğrunda» və «Füzulinin azad olunmasına görə» medalları ilə təltif edilmişdir.







## QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Məmmədov Elşən Vaqif oğlu

3 iyul 1992-ci ildə Gürcüstan Respublikasının
Bolnisi rayonun Zol-Güvəc kəndində anadan olmuşdur.





UNEC-in «Kommersiya» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Elşən Bakı şəhəri, Binəqədi rayonu Azər Məmmədov adına 115 saylı orta məktəbi bitirmişdir.









# Şəhidin universitet həyatı

Azərbaycan Dövlət İqtisad Universitetinə 2010-cu ildə 659 balla daxil olub, 2014-cü ildə müvəffəqiyyətlə başa vurmuşdur. Elşən «Kommersiya» fakültəsində təhsil almış, oxuduğu müddətdə tələbə dostlarının və eləcə də müəllimlərin hörmətini qazanmışdır.

# Şəhidin döyüş yolu

2014-cü ildə ali təhsilini başa vurub hərbi xidmətə yollanmışdır.

Tərtər rayonu ərazisində qoşunların təmas xəttində döyüş növbətçiliyinə çıxan Elşən Məmmədov posta çıxdıqdan bir neçə dəqiqə sonra düşmənin Azərbaycan mövqelərinə basqın etməyə cəhd göstərməsi nəticəsində düşmən gülləsinə tuş gəlmiş və qəhrəmancasına şəhid olmuşdur.

Şəhid olarkən Elşənin hərbi xidmətini başa vurmasına cəmi 5 gün qalmışdı.

Şəhidin atası, Bolnisinin Zol-Güvəc kəndində yaşayan Vaqif Məmmədov deyir: «Elşən 659 balla daxil olduğu Azərbaycan Dövlət İqtisad Universitetini keçən il bitirmişdir. Əsgər xidmətə yola düşəndə anasına demişdi ki, bu yolda ölüm-itim var, şəhid olmaq var. Xidmət etdiyi hissənin komandirləri ondan həmişə razı idilər. Mən dəfələrlə Elşənin görüşünə getmişdim. Qurban bayramı günlərində mənə zəng vurub bayramımızı da təbrik etmişdi. Sentyabrın 25-də isə zəngi gəldi və dedilər ki, oğlunuz şəhid olub. Allah cəmi şəhidlərə rəhmət eləsin, Vətən sağ olsun»

Elşən Məmmədov 2015-ci il sentyabrın 25-də cəbhənin Tərtər rayonu ərazisində qoşunların təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid olmşdur.

Sentyabrın 28-i isə Elşən Məmmədov doğulduğu Bolnisi rayonunun Zol-Güvəc kəndində son mənzilə yola salındı. Dəfn mərasiminə minlərlə rayon sakini ilə yanaşı, şəhidin qulluq etdiyi hərbi hissənin əsgərləri və zabitləri də qatılmışdı. Dəfn mərasiminin sonunda yaylım atəşi açıldı və şəhid əsgər Elşən Məmmədov torpağa tapşırıldı.





## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Məmmədov Elşən Vaqif oğlu ölümündən sonra «Hərbi xidmətdə fərqlənməyə görə» III dərəcəli medalı ilə təltif edilmişdir.





QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Mirzəliyev Aqil Mehman oğlu

27 avqust 1999-cu ildə
İsmayıllı rayonunda anadan olmuşdur.



UNEC-in «Maliyyə və mühasibat» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Aqil Mirzəliyev 2005-ci ildə İsmayıllı rayonunda İsrail Həsənov adına 1 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul olunmuşdur. Məktəb illərində çox fəal olan Aqil Mirzəliyev öz biliyi, intellektual səviyyəsi ilə daim seçilmişdir. Respublika fənn olimpiadaları, bilik yarışları və digər intellektual yarışlarda dəfələrlə respublika çempionu olmuşdur. Məktəbli olduğu dövrdə musiqiyə böyük maraq göstərən Aqil piano – musiqi alətində ifa etməyi bacarırdı. Bu illər ərzində o, həmçinin futbola da maraq göstərmiş, müxtəlif yarışlarda qələbə çalmışdır. Hətta AFFA Federasiyası Aqilin vurduğu qolu «İlin qollarından biri» olaraq paylaşmışdı. Məktəb illərində ictimai işlərdə daim fəallıq göstərmişdir.













# Şəhidin universitet həyatı

2016-cı ildə orta məktəbi əla qiymətlərlə başa vuran Aqil Mirzəliyev elə həmin il qəbul imtahanında 2-ci ixtisas qrupu üzrə 613 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin dövlət sifarişli olmaqla «Mühasibat uçotu və audit» ixtisasına qəbul olunmuşdur. 2020-ci ildə universiteti uğurla başa vurumuşdur.

# Şəhidin əmək fəaliyyəti

Zəhmətkeşliyi və əməksevərliyi ilə seçilən Aqil universitet illərində gündüzlər oxuyur, gecələr isə işləyirdi. Dadlı yeməkləri hazırlamağı bacaran Aqil tələbəlik dövründə gecə klublarından birində ofisiant olaraq çalışırdı.



# Şəhidin döyüş yolu



Aqil Mirzəliyev universiteti uğurla başa vurub məzun olduqdan sonra 27 iyul 2020-ci il tarixində hərbi xidmətə çağırılmışdır. Vətənə böyük məhəbbət, düşmənə isə dərin nifrət bəsləyən Aqil Mirzəliyev hərbi xidmətə yollanmış və Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlamışdır.

Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edən Aqil Mirzəliyev 2020-ci il sentyabr ayının 27-dən başlayan 2-ci Qarabağ müharibəsində fəal iştirak etmiş, Murovdağ silsiləsi, Cəbrayıl, Füzuli, Hadrut istiqamətlərində gedən döyüşlərdə böyük şücaət göstərmişdir.

Əsgər yoldaşları Aqil Mirzəliyevlə bağlı xatirələrindən danışarkən bildirdi ki, Aqil könüllü olaraq daim öndə gedir və həmişə yoldaşlarına bildirirdi ki, biz bura döyüşməyə, Vətənimizi xilas etməyə gəlmişik. Komandiri Aqil Mirzəliyevlə bağlı xatirələrindən danışarkən qeyd edir: "Xocavənd döyüşlərində mən Aqili geridə saxlamaq istəyirdim, lakin o israrla gəlib dedi ki, komandir, məni saxlama, mən birinci gedəcəyəm. Mən Aqili saxlaya bilmədim". Komandirləri Aqillə bağlı danışarkən qeyd edirlər ki, o, ali savadlı və məntiqi çox güclü olduğu üçün çətin vəziyyətlərdən rahatlıqla çıxa bilirdi.

Əsgər yoldaşı Aqil Mirzəliyevlə bağlı xatirələrindən danışarkən qeyd edir: "Biz Hadrutu aldıqdan sonra bütün şəxsi heyət ac idi, lakin biz çantamızdakı yeməyi yediyimiz üçün o qədər də aclığımız yox idi. Ərzağı əldə etmək üçün kəndə düşməli idik, lakin həmin kənd düşmənlər tərəfindən fasiləsiz atəşə tutulurdu. Biz də ona görə risk edib həmin kəndə girə bilmirdik. Lakin Aqil heç nədən qorxmadan, ölümün gözünə dik baxaraq getdi. Elə bu vaxt Aqilin olduğu təpə atəşə tutuldu. Mən qışqırdım ki, Aqil, getmə. O da gülümsəyərək mənə baxıb dedi ki, ya o yanlıq olacağıq, ya da bu yanlıq, həmin təpəni bir dəfə vurdularsa, daha vurmayacaqlar, əsas sən təhlükədəsən, sən gəl bura. Və beləcə, Aqil bütün şəxsi heyət üçün ərzaq gətirdi. Çox dadlı yeməklər hazırlayıb bütün şəxsi heyəti doydurdu. Hələ də o yeməyin dadı damağımdadır". Daha bir əsgər yoldaşı isə şəhid Aqil Mirzəliyevin ailəsi ilə söhbət zamanı demişdi ki, Aqilin döyüş şücaətlərinin sözlə ifadəsi qeyri-mümkündür. Qeyd edək ki, Aqil Mirzəliyev gözünün zəif olduğunu hər kəsdən, bütün yoldaşlarından, eləcə də komandirlərindən gizlədərək həmişə öndə gedib. Bütün komandirlər, əsgər yoldaşları onun bu vətənpərvərlik hisslərini çox yüksək qiymətləndirir, Vətənimizin qeyrətli oğullarından olan Aqil Mirzəliyevlə fəxr edirdilər.

Telefon danışıqları zamanı hər dəfə ailəsinə nigaran qalmamalarını və tezliklə qələbə xəbərləri ilə qayıdacağını bildirirdi. Ailəsi ilə son telefon danışığı şəhadətindən 2 gün öncə - 2020-ci il oktyabr ayının 18-də olmuşdur. Həmin telefon danışığı zamanı Aqil Mirzəliyev anasına demişdi: «İndi bu Vətəni kim qorusun? Bu

torpağı kim alsın? Burada bir rütbəli var, bir dəfə yaralandı, getdi hospitala və sağalıb gəldi. Sonra yenə yaralandı və dedi ki, Vətən sağ olsun! Mənim belə mərd, cəsur komandirlərin yanında heç nə deməyə haqqım yoxdur. Mənə nə tapşırıq verilsə, onu da edəcəm». Əsgər yoldaşı Toğrul Zeynalov Aqil Mirzəliyevlə bağlı xatirələrindən danışır: «Uzun yol gəlmişdik, 5-6 dəqiqə istirahət vaxtı verilirdi. Aqilin çantasında peçenyesi var idi. Çoxdan götürmüşdü, qalmışdı çantasında. Çantasını axtardı, axtardı və birdən dedi ki, «peçenye»m var. Dedim ki, gətir, yeyək. Yeyib, daha sonra dedik-güldük. Elə 10 dəqiqə sonra mərmi düşdü yanımıza, mən yaralandım, Aqil isə Şəhid oldu».

Öz sadəliyi, mehribanlığı və ən əsası yüksək vətənpərvərlik hissləri ilə seçilən Aqil Mirzəliyev 2020-ci il oktyabr ayının 20-də, səhər saatlarında Xocavənd rayonu, Tuğ kəndi istiqamətində Vətən uğrunda qəhrəmancasına şəhid olmuş, oktyabr ayının 23-ü İsmayıllı rayonu, Şəhidlər Xiyabanında dəfn edilmişdir.

# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Mirzəliyev Aqil Mehman oğlu ölümündən sonra «Vətən uğrunda» və «Kəlbəcərin azad olunmasına görə» medalları ilə təltif edilmişdir.






QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Mirzəyev Mahir Sabir oğlu

17 fevral 1994-cü ildə
Bakı şəhərində anadan olmuşdur.



UNEC-in “İqtisadiyyat” fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Mahir orta təhsilini 2000-2005-ci illərdə Abşeron rayonu Fatmayı kənd orta məktəbində, 2005-2011-ci illərdə isə Bakı şəhəri N.Nərimanov rayonu şəhid Novruzov qardaşları adına 36 saylı orta məktəbdə almışdır. Orta məktəbi əla qiymətlərlə başa vurmuşdur.

2007-ci ildə Azərbaycan Respublikası Ciu-citsu Milli Federasiyasının üzvü olmuş və imtahanda bacarıq göstərərək 7 Sichi-Kyu-ya layiq görülmüşdür.









# Şəhidin universitet həyatı

Şəhid Mahir Mirzəyev 2011-ci ildə 541 balla Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadiyyat» fakültəsinə daxil olmuş, 2015-ci ildə universiteti müvəffəqiyyətlə başa vurmuşdur.

# Şəhidin əmək fəaliyyəti

Mahir 2013-cü ildə «ASAN» xidmətdə, 2014-cü ildə Əmrahbank Akademiyasında, 2014-cü ilin sentyabr-dekabr aylarında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, 12-28 iyun 2015-ci ildə isə «Avropa Oyunları»nda könüllü kimi fəaliyyət göstərmişdir. Bütün bu fəaliyyətlərindən diplom, sertifikat və fəxri fərmanlar almışdır. O, türk, ingilis, rus, ərəb dillərini bilirdi.

# Şəhidin döyüş yolu

6 iyul 2015-ci ildə Bakı şəhəri N.Nərimanov rayonu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən hərbi xidmətə - Gəncəyə göndərilmiş və 3 ay sonra Tərtər rayonunda hərbi xidmətini davam etdirmişdir. Mirzəyev Mahir Sabir oğlu 2 aprel 2016-cı ildə Aprel döyüşləri zamanı Seysulan, Qapanlı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhid olmuşdur. 8 aprel 2016-cı ildə Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsi ilə əldə olunan razılığa əsasən öndə, neytral zonada qalan şəhidlərimizin nəşi götürülərək ailələrinə verilmişdir. 9 aprel 2016-cı ildə Mirzəyev Mahir Sabir oğlunun cənazəsi Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbəsindən böyük izdihamla Pirşağa məzarlığına yola salınmışdır.





# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Mirzəyev Mahir Sabir oğlu ölümündən sonra «Hərbi xidmətdə fərqlənməyə görə» III dərəcəli medalı ilə təltif edilmişdir. Həmçinin Bakı şəhəri, Nərimanov rayonunda yerləşən küçələrdən birinə şəhidin adı verilmişdir.






Q A R A B A Ğ   A Z Ə R B A Y C A N D I R !

# Şəhid
# Muradov Hüseyn Fərhad oğlu

10 may 1994-cü ildə Saatlı rayonunun
Cəfərxan kəndində anadan olmuşdur.





UNEC-in «İqtisadiyyat» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı







Hüseyn Muradov Bakı şəhəri Nizami rayonu 12 saylı məktəbdə ibtidai təhsil almışdır. Xətai rayonu 147 nömrəli Texniki Humanitar Liseydə orta təhsilini davam etdirmiş və məzun olmuşdur.

Oxuduğu liseydə məktəbin rəhbərliyi tərəfindən yüksək dərs müvəffəqiyyəti və ictimai tədbirlərdə fəal iştirakına görə tərifnaməyə layiq görülmüşdür. Təhsil aldığı dövrdə Bakıda keçirilən tarix fənni üzrə bilik yarışında I yeri tutmuşdur.

Orta məktəbi əla qiymətlərlə bitirmişdir. Müəllimlərinin sevimlisi olmuşdur. Müəllimləri Hüseyni böyük tərbiyə və mənəviyyat nümunəsi olan bir şagird kimi xatırlayır. Hüseynin hələ məktəb illərindən yüksək vətənpərvərlik hisslərinə malik bir yeniyetmə olduğu deyilir.



# Şəhidin universitet həyatı

Hüseyn Muradov 2011–ci ildə 502 balla UNEC–in «İqtisadiyyat» fakültəsinə «İqtisadiyyat» ixtisası üzrə daxil olmuşdur. 2015-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

# Şəhidin döyüş yolu

Hüseyn Muradov Qarabağda Vətən Müharibəsi başlamazdan öncə - 21 sentyabr 2020-ci ildə ehtiyatda olan hərbçi kimi təlimlərdə iştirak etmək üçün ordu sıralarına çağırılmışdır. Sonra isə Füzuli və Cəbrayıl rayonlarının azad olunmasında iştirak etmişdir.

2015-ci ildə Murovdağda hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində iştirak etmişdir. Bu döyüşlərdə vəzifəsi minaatan idi. Bölükdə minaatan batareyada fəaliyyət göstərmiş, artilleriyaçı olmuşdur.

27 sentyabrda Füzuli istiqamətində başlayan döyüşlərə qatılmışdır. Füzuli və Cəbrayıl uğrunda gedən qızğın döyüşlərdə iştirak etmişdir. Vətən Müharibəsində pulemyotçu kimi döyüşmüşdür. Dəfələrlə döyüşlərdə böyük qəhrəmanlıqlar göstərmişdir.

8 oktyabr 2020-ci ildə Hadrut uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Şəhid Bakı şəhəri Nizami rayonu Keşlə qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.



# Təltifləri

Şəhid 2016-cı ildə Aprel döyüşlərində iştirakına görə «Fəxri fərman»la təltif olunmuşdur. 2020-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Muradov Hüseyn Fərhad oğlu ölümündən sonra «Vətən uğrunda» və «Cəbrayılın azad olunmasına görə» medalları ilə təltif edilmişdir.








# Şəhid
# Namətov Naib Firqət oğlu

11 fevral 1998-ci ildə Rusiya Federasiyasının Bryansk şəhərində anadan olmuşdur.



UNEC-in «Rus iqtisad məktəbi»nin məzunu

# Şəhidin məktəb həyatı

Naib Bakının Nərimanov rayonundakı 47 nömrəli orta məktəbdə təhsil almışdır. Dərslərinə çox ciddi yanaşırdı. Dərsarası tənəffüslərdə belə kitab oxuyurdu. Arabir hobbi olaraq rəsm çəkməyi xoşlayardı. Çəkərkən də yenə ilhamını təbiətdən alar, təbiət mənzərələri, heyvanat aləmini çəkərdi. Haqqını tələb edən idi, ədalətsizliyə qarşı axıra qədər dirənərdi. Ədalətli müəllimlərin qədrini bilir, onların xətrini çox istəyirdi.









# Şəhidin universitet həyatı

Naib 2016-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetinə «Rus iqtisad məktəbi»nin «Menecment» ixtisasına 234 balla qəbul olub və 2020-ci ildə ali təhsilini başa vurub. Oxuduğu illərdə özünü çox mədəni, intizamlı tələbə kimi nümayiş etdirmişdir. Çətin vəziyyətdə olan ailəsini dolandırmaq üçün günün ikinci yarısı çalışırdı. Dərslərdə bəzən yorğun və yuxulu görünsə də, bütün tapşırıqları vaxtında yerinə yetirir, təhsilini kəsirsiz başa vurmağa nail olurdu. Təhsil müddətində maddi imkansızlıq və işlədiyi üçün qrup yoldaşları ilə bir o qədər də əylənmirdi. Yalnız universitet bufetində söhbət edir, hamı kimi universitet həyatı, dərslər və müəllimlərdən danışardı. İxtisas fənnlərinə daha böyük maraq və diqqətlə yanaşar, menecment ixtisası ilə bağlı fənləri, ixtisas rəhbəri Natiq Qurbanovun mühazirələrini dinləməyi xoşlayardı. Ən böyük arzularından biri də Məzun gününü gözəl qeyd etmək idi. Təəssüf ki, məlum pandemiya şəraitində bu arzusu həyata keçmədi. Rusiyaya magistraturaya sənədlərini vermişdi. Magistraturaya qəbul olunsa da, maddi sıxıntılara görə imtina etməli oldu.

# Şəhidin əmək fəaliyyəti

Naib  UNEC-də təhsil aldığı müddət ərzində «Şur» restoranında köməkçi heyətin tərkibində çalışıb və öz qazandığı vəsait ilə anasını və özünü təmin etməklə bərabər ilbəil təhsil haqqını da ödəyirdi. Yeri gəlmişkən onu da qeyd edək ki, Naib hər tədris ili üçün nəzərdə tutulmuş təhsil haqqını vaxtlı-vaxtında ödəyirdi. Keçmiş iş yerində onunla işləyənlər xatirələrini bölüşərkən haqqında ağız dolusu danışırlar. Bildirirlər ki, rəhmətlik Naib çox yüksək mədəni səviyyəsi ilə digər işçilərdən seçilərdi. Onun iş yerində əldə etdiyi ən böyük nailiyyət restoranın rəhbərliyi, iş kollektivi və restorana gələn qonaqlar arasında qazandığı yüksək hörmət idi.



# Şəhidin döyüş yolu

Naib Namətov 1 iyul 2020-ci il tarixində Ağdaş Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi xidmətə çağırılıb. Hərbi xidmətə çağrıldığı gündən o, özünü çox intizamlı bir əsgər kimi göstərmiş, komandirlərin əmrini çox yüksək bir səviyyədə yerinə yetirmişdir. Yüksək döyüş hazırlığı ilə seçilən şəhidimiz müharibə başlayan ilk gündən döyüşlərə qatılıb və cəbhənin ön sıralarında fədakarlıqla döyüşmüşdür. Əsgər yoldaşları onun çox cəsur bir döyüşçü olduğunu söyləyirər.

Çox təssüf olsun ki, o Böyük Qələbəni görə bilmədi. 3 oktyabr 2021-ci il tarixdə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak oldu. Şəhidimiz Naib Ağdaş rayonunun Qarağan Sədi kəndinin qəbiristanlığında dəfn olunmuşdur.



Naib ailə qurmaq arzusunda idi. Həmişə deyərdi ki, xanımını xoşbəxt edən, ilk növbədə onun həyat yoldaşı olmalıdır. Amma, çox təəssüf ki, ailə qurmaq ona nəsib olmadı. O, anasını və 10 yaşlı kiçik qardaşını çox sevərdi. Boş vaxtlarında anası ilə saatlarla söhbət edərdi. Həmişə kişik qardaşının qayğısını çəkərdi.



# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Namətov Naib Firqət oğlu ölümündən sonra «Vətən uğrunda» (15 dekabr 2020) və «Füzulinin azad olunmasına görə» (26 dekabr 2020) medalları ilə təltif edilmişdir.






QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Rəcəbov Şamil Kamil oğlu

4 oktyabr 1970-ci ildə
Ağdam şəhərində anadan olmuşdur.





UNEC-in «İqtisadiyyatın tənzimlənməsi» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Rəcəbov Şamil 1977-ci ildə Ağdam şəhər 5 saylı orta məktəbinin birinci sinfinə daxil olmuş, 1988-ci ildə məktəbi uğurla bitirmişdir. Şamil məktəb illərində savadı və zəkası ilə daim müəllimlərin sevimlisi olub və valideynlərinə həmişə başucalığı gətirən bir övlad idi. Məktəbi əla qiymətlərlə bitirdikdən sonra 1988-1990-cı illərdə Rusiyanın Xabarovski vilayətində hərbi xidmətdə olmuşdur. Hərbi xidməti müddətində Şamil nümunəvi hərbiçi olduğundan və rabitəçi peşəsini yaxşı mənimsədiyindən ona kiçik çavuş rütbəsi verilmişdir.





ТӘ'РИФНАМӘ
ПОХВАЛЬНАЯ ГРАМОТА

# Şəhidin universitet həyatı

Rəcəbov Şamil hərbi xidmətini başa vurub Vətənə qayıtdıqdan sonra 1991-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutunun (indiki UNEC) «İqtisadiyyatın tənzimlənməsi» fakültəsinə qiyabi «Əməyin iqtisadiyyatı və sosiologiyası» ixtisasına daxil olmuşdur. Lakin Şamil 1993-cü ildə ikinci kursu bitirərək təhsilini dayandırmış və Qarabağa – cəbhəyə, döyüşlərə yollanmışdır.

# Şəhidin əmək fəaliyyəti

Rəcəbov Şamil qiyabi təhsil almaqla yanaşı Bakı Neft Emalı Zavodunda çalışmışdır.

## Şəhidin döyüş yolu

Ermənilər Ağdam şəhərini işğal etdikdən sonra təhsilini yarımçıq qoyaraq, könüllü döyüşlərə yollanmışdır. Cəbhəyə yollandığı ilk günlərdən Ağdamın könüllülər batalyonunun tərkibində vuruşmuşdur. Şamil Göytəpə, Yusifcanlı, Qızıl Kəngərlidə gedən ağır döyüşlərin iştirakçısı olmuş, 1994-cü il, aprelin 9-da Göytəpə Atçılıq Zavodu istiqamətində ermənilərin hücümu zamanı qəhrəmanlığı ilə fərqlənmiş, nəticədə düşməni ciddi itki verərək geri çəkilməyə məcbur etmişdir. Ağır zərbə almış azğın düşmən aprelin 18-də daha böyük canlı qüvvə və ağır texnika ilə yenidən hücumə keçib. Düşmənin Qərvənd kəndinə doğru irəlilədiyini görən tağım komandiri Nazim Cəbrayılov Şamil də daxil olmaqla 25 döyüşçü ilə birlikdə düşmənin qarşısını kəsməyə çalışıb. Lakin düşmən canlı qüvvədə və texnikada olan üstünlüyü sayəsində az keçmədən döyüşçülərimizi mühasirəyə alıb və ölüm-dirim mübarizəsi başlayıb. Silah-sursatın tükənməyi səbəbindən ermənilər gec də olsa üstünlüyü ələ ala bilib və nəticədə bu qanlı döyüşdən cəmi 4 igidimiz sağ çıxa bilib. Gedən qanlı döyüşlərdə tağım komandiri Nazim Cəbrayılov və Şamil Rəcəbov da qəhrəmanlıqla şəhid olublar. Şamil Rəcəbov Bakıdakı II Şəhidlər Xiyabanında dəfn olunub.







QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Rəsulov Əli Hidayət oğlu

7 yanvar 1992-ci ildə
Biləsuvar rayonunda anadan olmuşdur.





UNEC-in «Uçot-iqtisad» fakültəsinin məzunu

## Şəhidin məktəb həyatı

Əli Rəsulov Biləsuvar rayonundakı 3 saylı orta məktəbdə (1979-1989) təhsil almışdır. 1989-cu ildə orta məktəbi əla və yaxşı qiymətlərlə bitirmişdir.

## Şəhidin universitet həyatı

1990-1992-ci illərdə hərbi xidmətdə olmuşdur. 1993-cü ildə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki UNEC) «Uçot-iqtisad» fakültəsinə daxil olmuşdur. «Mühasibat uçotu nəzarət və təsərrüfat fəaliyyətinin təhlili» ixtisasında qiyabi təhsil alan Əli elə I kursda təhsilini yarımçıq qoyaraq, könüllü Qarabağda gedən döyüşlərdə iştirak etmişdir.

QARABAĞ AZƏRBAYCANDIR!

## Şəhidin döyüş yolu

Əli Rəsulov 12 yanvar 1994-cü ildə Füzuli rayonu istiqamətindəki döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

# Şəhid
# Rzayev Fuad Məmmədəli oğlu

7 oktyabr 1971-ci ildə
Bakı şəhərində anadan olmuşdur.



UNEC-in «Uçot-iqtisad» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Fuad Bakı şəhəri Nizami rayonu 145 saylı orta məktəbdə (1978-1988) təhsil almışdır. 1988-ci ildə orta məktəbi əla və yaxşı qiymətlərlə bitirmişdir.

# Şəhidin universitet həyatı

Fuad Rzayev 1988-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki UNEC) daxil olaraq «Uçot-iqtisad» fakültəsində təhsil almışdır.

Fuad 3-cü kursa qədər təhsilini davam etdirmiş, sonra isə təhsilini yarımçıq qoyub Qarabağ savaşına qatılmışdır.




# Şəhidin döyüş yolu

1989-cu ilin dekabrında Fuad Rzayev ordu sıralarına çağırılıb. Hərbi xidmətdən qayıtdıqdan sonra 1992-ci il oktyabrın 1-dən Nizami rayon Hərbi Komissarlığının sərəncamı ilə Azərbaycan Respublikasının Milli Qvardiyasında xidmət etmişdir. Təhsilini qiyabi şöbədə davam edən Fuad Rzayev Dağlıq Qarabağ uğrunda aparılan hərbi əməliyyatlarda, birbaşa Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişdir.

Fuad Rzayev 1993-cü il iyunun 4-də Gəncə hadisələri zamanı dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsi yolunda şəhid olub. İyunun 8-də Bakıdakı Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Səfərov Saleh Səfər oğlu

1 fevral 1954-cü ildə
Ağdamda anadan olmuşdur.





UNEC-in «Xalq təsərrüfatının planlaşdırılması» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Saleh Səfərov Ağdam şəhər 1 saylı orta məktəbi bitirib.

# Şəhidin universitet həyatı

O, 1970-ci ildə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüaftı İnstitutunun (indiki UNEC) «Xalq təsərrüfatının planlaşdırılması» fakültəsinə qəbul olunub və 1974-cü ildə İnstitutu bitirib. 1991-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin qiyabi şöbəsinə daxil olub.

QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhidin əmək fəaliyyəti

Əsgərlikdən qayıtdıqdan sonra Ağdam rayon maliyyə şöbəsində müfəttiş vəzifəsində çalışıb. 1992-ci ildə iqtisadi cinayətkarlığa qarşı mübarizə şöbəsində işə başlayıb.

# Şəhidin döyüş yolu

1974-76-cı illərdə Ukraynanın İvano-Frankovski şəhərində əsgəri xidmətdə olub. Azərbaycan-Ermənistan münaqişəsi vaxtı Ağdam rayonunun müdafiəsində dayanıb. 1993-cü il yanvarın 15-də Ağdamın Qiyaslı kəndində gedən döyüşlərdə şəhid olub

# Şəhid
# Sultanov İlyas Mehralı oğlu

18 mart 1957-ci ildə
Füzuli rayonunda anadan olmuşdur.





UNEC-in «Əmtəəşünaslıq» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

İlyas 1964-cü ildə Füzuli rayon Xurşudbanu Natavan adına orta məktəbin birinci sinfinə getmiş və 1974-cü ildə məktəbi bitirmişdir. İlyasın sinif yoldaşları onun səmimiliyi, zarafatcıllığı, yüksək hazırlığı ilə seçilən və yaşıdlarının qayğısına qalan bir gənc kimi xatırlayırlar və onun həm şagirdlərin, həm də müəllimlərinin sevimlisi olduğunu bildirirlər.





# Şəhidin universitet həyatı

İlyasın həyatda ən böyük arzusu ali təhsil alıb elinə, obasına, Azərbaycana layiqli bir vətəndaş kimi xidmət etmək idi. İlyas 1975-ci ildə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüaftı İnstitutuna (indiki UNEC) qiyabi şöbənin «Maddi texniki təchizat iqtisadiyyatı və planlaşdırılması» ixtisasına daxil olub. 1976-cı ildə Moskva şəhərinin Vladimr vilayətində hərbi xidmətdə olub. 1981-ci ildə ali təhsilini başa vurmuşdur.

# Şəhidin əmək fəaliyyəti

1981-ci ildə ali təhsilini başa vurduqdan sonra, Füzuli rayon İstehlak Cəmiyyətində əmək fəaliyyətinə başlayıb. İlyas institutda qiyabi təhsil formasında təhsil almaqla yanaşı, ticarət sferasında da çalışmış və iş fəaliyyətində özünə yüksək hörmət qazana bilmişdir. Bir müddətdən sonra Füzuli rayon ticarət sistemi üzrə Həmkarlar Təşkilatının sədri vəzifəsində çalışmışdır.



# Şəhidin döyüş yolu

Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları başlanandan sonra Füzuli rayonunda yaradılan könüllülərdən ibarət özünümüdafiə batalyonunun ilk üzvlərindən biri də İlyas idi. 1992-ci ildə baş verən dəhşətli Xocalı faciəsindən sonra İlyas özünə yer tapa bilmir, vətən sevgisi, soydaşlarının qisasını almaq üçün alışıb yanan qəlbi ilə 3 övladının olmasına baxmayaraq, öz qardaşına «Sən ev işlərini qaydaya sal, məni isə Vətəni qorumağa gedirəm» - deyərək, fevralın 27-də könüllü cəbhəyə yollanmışdır. O, ehtiyatda olan zabit olduğundan batalyonun tağım komandiri təyin edilmişdir. Füzuli rayonunun Hoğa, Qacar, Qovşadlı və Yuxarı Veysəlli kəndlərində gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. 1992-ci ilin avqust ayının 14-də İlyas son döyüşə qatıldı. Həmin gün anası Teybə xanım, qızları İlhamə və Gülşən, eləcə də ömür-gün yoldaşı çox narahat idilər. Sanki nə isə olacağı onların ürəyinə dammışdı. Ona görə də bir yerdə qərar tuta bilmirdilər. Çünki döyüşə gedən İlyas onlarla son döyüşə gedən əsgər kimi vidalaşmışdı. Bu da ana ürəyinə öz təsirini göstərmişdi. Yuxarı Veysəlli kəndi uğrunda gedən döyuşdə qəhrəmanlıq göstərən könüllülər düşmənin xeyli sayda canlı qüvvəsni məhv etsə də, sonda minalanmış sahələrdə ağır itkilər verməli oldular. İlyas Sultanov 15 avqust 1992-ci ildə Füzulinin Yuxarı Veysəlli kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Şəhid Füzuli rayonundakı Şəhidlər Xiyabanında dəfn olunub. Füzulinin Yuxarı Veysəlli kənd orta məktəbi onun adını daşıyır. Bu gün İlyasın ruhu şaddır, çünki artıq Füzuli torpağı işğaldan azad edilib və İlyasın da bu torpaqlarda şəhid olmuş bütün Azərbaycan oğullarının qisası alınmışdır.



İlyas 1980-ci ildə Əminə adlı xanımla ailə həyatı qurur və 3 övladı dünyaya gəlir. Tanrı ona Gülşən və İlhamə adlı qız, həmçinin atasının adını yaşadan Mehralı adlı oğul bəxş etdi.





QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Şahverdiyev
# Böyükağa Savalan oğlu

15 iyun 1998-ci ildə Biləsuvar rayonunda
məcburi köçkünlər üçün salınmış çadır şəhərciyində anadan olmuşdur.






UNEC-in «İqtisadiyyat» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Böyükağa Şahverdiyev Cəbrayıl rayon 10 nömrəli orta məktəbdə təhsil almışdı.

Orta məktəbdə təhsil aldığı müddət ərzində savadı, bacarığı, Vətənə sevgisi ilə fərqlənirdi. «Qarabağ, Cəbrayıl, Vətən bölünməz, şəhidlər ölməz» onun şüarı olmuşdur. Hər zaman birinciliyi, savadı və tərbiyəsilə rəğbət qazanmışdır. Azərbaycan Respublikası ümumi təhsil məktəblərinin fənn olimpiadasında coğrafiya, riyaziyyat, tarix fənləri üzrə qalib olmuşdur. Ulu Öndər Heydər Əliyevin ildönümləri və Azərbaycan dilinin inkişafı ilə bağlı tədbirlərdə fəal iştirak edərək təşəkkürnamələrlə təltif edilmişdi. Bundan əlavə Cəbrayıl rayonu milli bilik yarışmalarında da ilk yerləri tutmuşdu.







# Şəhidin universitet həyatı

Böyükağa 2015–ci ildə 440 balla UNEC- in «İqtisadiyyat» fakültəsinə «İqtisadiyyat» ixtisası üzrə daxil olmuş, 2019-cu ildə oranı bitirmişdir.

# Şəhidin döyüş yolu

4 iyul 2019-cu ildə universiteti bitirib hərbi hissəyə yollanıb. Azərbaycan Silahlı Qüvvələrinin Sumqayıt şəhərində yerləşən «N» saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olarkən Vətən müharibəsinə yollanmışdır. Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Böyükağa Şahverdiyev minaatan olub. Hədəfi yüksək dəqiqliklə vurduğuna görə uğurlu əks-hücumlarda fəal iştirak etmiş və böyük şücaət göstərmişdir. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv edən qəhrəmanımızın Azərbaycan tərəfinin Füzulidə qənimət kimi 10 tankın ələ keçirilməsində böyük rolu olmuş  və o döyüşlərdə şəhid olmuşdu. Düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etmişdir. Uşaqlıqdan Qarabağ, Cəbrayıl sevgisinin yüksək olması, bu əraziləri dərindən öyrənib mənimsəməsində böyük rol oynamışdır. Həmin ərazilərin coğrafi xəritəsini əzbər bilirdi və bu biliklərini döyüş zamanı dəqiqliklə istifadə edirdi. Vətənə bağlılığı ilə seçilən Böyükağa dövlət atributumuz olan bayrağı sinəsində  gəzdirirdi. Onun bayraq sevgisi böyük idi. Arzusu işğaldan azad edilən rayonlardan ən azı birinə bayraq sancmaq idi. Son döyüş əməliyyatında yalnız atıcılar tələb olunduğu üçün Böyükağanı döyüşə daxil etməsələr də, özü bu əməliyatda könüllü olduğunu bildirərək irəli atılmışdı. O,  hərbi xidmətə yeni gələn əsgərlərə təcrübələri az olduğuna görə açıq döyüşə qoşulmağa imkan verməmiş, əvəzində özü həmin əməliyyatlarda iştirak etmişdi.

Böyükağa Şahverdiyev 5 düşmən postunun alınması uğrunda gedən döyüşlərdə xüsusi igidliklə vuruşmuş, qəhrəmancasına həmin postların düşməndən alınmasında iştirak etmişdir.

Böyükağa Şahverdiyev 8 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 9-da Biləsuvardakı «Cəbrayıl qəsəbəsi»ndə salınmış Şəhidlər Xiyabanında dəfn olunmuşdur.





# Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Şahverdiyev Böyükağa Savalan oğlu ölümündən sonra «Vətən uğrunda» və «Cəbrayılın azad olunmasına görə» medalları ilə təltif edilmişdir.








QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid Şıxməmmədov Hikmət Azər oğlu

6 dekabr 1995-ci ildə Ağstafa rayonunun
Dağ Kəsəmən kəndində anadan olmuşdur.



UNEC-in «Biznes və menecment» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Hikmət Ağstafa rayonunun Kəsəmən kəndi 2 saylı məktəbində təhsil almışdır. Məktəb illərindən öz savadı və tərbiyəsi ilə yaşıdlarından seçilmişdir. Məktəb vaxtı sinif yoldaşlarının, həmçinin müəllimlərin hörmətini qazanmışdı. Müəllimləri onun istedadlı olduğunu bilirdilər. Məktəblərarası yarışlarda hər zaman fəal iştirak edir və yüksək nəticələr qazanırdı.







# Şəhidin universitet həyatı

Hikmət 2013-cü ildə İqtisad Universitettinin «Biznes və menecment» fakültəsinə daxil olmuş, 2017-ci ildə oranı «Biznesin idarə edilməsi» ixtisası üzrə bitirmişdir. Oxuduğu müddətdə öz xoş və mehriban xasiyyəti ilə tələbə yoldaşlarının ürəyinə yol tapmışdı. Bununla yanaşı müəllim kollektivinin də nüfuzunu qazanmışdır. Tələbəlik illərində həmişə yaxşı oxuyaraq tələbə təqaüdü almışdır. Dərslərini yaxşı oxuyur və imtahanlardan hər zaman yüksək bal toplayırdı. Eyni zamanda qrup yoldaşları ilə imtahanlara hazırlaşaraq bildiklərini onlarla bölüşərdi.

# Şəhidin əmək fəaliyyəti

«TuranBank» Qazax rayonundakı filialında aparıcı mütəxəssis işləmişdir.
Hikmət təkcə bankda işləməklə kifayətlənməmiş, atasına avtomobil təmiri işlərində köməklik etmişdir. Sonralar Hikmət özü də çox gözəl avtomobil təmir etmə bacarığına sahib olmuşdur.

# Şəhidin döyüş yolu

Hikmət 29 sentyabr 2020-ci il tarixində könüllü cəbhəyə yola düşmüşdür. Füzuli, Şuşa və bu istiqamətdə digər rayonların azad edilməsində fəal iştirak etmişdir.

Əsgər yoldaşlarının dediyinə görə Hikmət özü yaralı olsa da, daha ağır yaralı olan yoldaşlarını döyüş meydanından çıxarmağa kömək edirmiş. Elə yaralı əsgər yoldaşını xilas etməyə çalışarkən Şuşa yaxınlığında 8 noyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.

Ağstafa rayonunda dəfn edilmişdir.





Hikmət 23 sentyabr 2020-ci ildə ailə həyatı  qurmuşdur.






## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Şıxməmmədov Hikmət Azər oğlu ölümündən sonra «Vətən uğrunda», «Cəsur döyüşçü» və «Şuşanın azad olunmasına görə» medalları ilə təltif edilmişdir.



QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Şirinov Aslan Sərdar oğlu

14 sentyabr 1974-cü ildə
Şamaxı rayonunda anadan olmuşdur.



UNEC-in «Kommersiya» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Aslan Şirinov Şamaxı rayon Meysəri kənd orta məktəbində təhsil almışdır.

Orta məktəbi əla qiymətlərlə oxuyan Aslan qalib kimi beynəlxalq pioner düşərgəsinə göndərilmiş, müəllifi olduğu şeir və məqalələr ölkənin müxtəlif qəzetlərində dərc olunmuşdur.

Aslan Şirinovun ən böyük arzusu iqtisadçı olmaq idi.







# Şəhidin universitet həyatı

Aslan Şirinov Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki UNEC) 1992-ci ildə qəbul olunmuşdur. «Kommersiya» fakültəsində təhsil alan Aslan oxuduğu bir il müddətində yüksək qiymətlər alaraq özünü çox bacarıqlı gənc kimi göstərmişdir.

Universitetdə oxuduğu müddətdə erməni işğalçılarının təcavüzünə dözməyərək arzuladığı ixtisasını yarımçıq qoyaraq cəbhəyə yollanmaq qərarına gəlir.



# Şəhidin döyüş yolu

I kursda təhsilini yarımçıq qoyaraq, könüllü cəbhəyə yollanmışdır.

Ağdam, Goranboy, Tərtər və Ağdərə istiqamətində gedən ağır döyüşlərdə özünü mətin və iradəli bir əsgər kimi göstərmişdir.

Ağdərə rayonunun ərazisindəki qanlı döyüşlərdə yaralanan Aslan sağalar-sağalmaz yenidən ön cəbhəyə qayıtmışdır.

1993-cü il fevralın 16-da Ağdərə bölgəsində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhidlik zirvəsinə yüksəldikdən sonra təhsil aldığı Şamaxı rayon Meysəri kənd orta ümumtəhsil məktəbi Aslan Şirinovun adını daşıyır. Bununla yanaşı, şəhidlərin xatirəsini əbədiləşdirmək üçün Şamaxı rayonunda "Şəhidlər xiyabanı" kompleksi yaradılmışdır.







QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Umudov Məhəmməd Eldar oğlu

18 mart 1974-cü ildə
Sumqayıt şəhərində anadan olmuşdur.





UNEC-in «Maliyyə və mühasibat» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Məhəmməd Umudov orta təhsilini əvvəlcə Sumqayıt şəhər 5 saylı orta məktəbdə, sonra isə 25 saylı riyaziyyat təmayüllü orta məktəbdə almışdır. Məktəb illərində Məhəmməd Umudov əzmkarlığı, fəallığı, biliyi, xüsusən, riyaziyyat sahəsində fitri-istedadı ilə seçilib.

Atası Eldar müəllimin sözlərinə görə, Məhəmməd tək riyazi bilikləri ilə seçilmirdi, həm də idmanda yaxşı nəticələr göstərmişdir. Böyük qardaşı ilə birlikdə karate ilə məşğul olurdular. O, oxuduğu hər iki məktəbi karate üzrə yarışlarda uğurla təmsil edirdi. «Qara kəmər" ustası idi. Özündən sonra bizə saysız-hesabsız diplom və medallarını yadigar qoyub getdi...









# Şəhidin universitet həyatı

Məhəmmədin uşaqlıqdan arzusu mühasib olmaq idi. Bu arzu onu Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olmağa həvəsləndirmişdi. Orta məktəbi 1991-ci ildə bitirən Məhəmməd Umudov həmin il Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki UNEC) qəbul olmuşdur.

Məhəmməd Umudov «Maliyyə-iqtisad» fakültəsinin əyani şöbəsinin 622 saylı qrupunun I kurs tələbəsi idi. O, cəmi bir semestr təhsil aldıqdan sonra təhsilini yarımçıq qoyaraq könüllü Qarabağa - vətənin müdafiəsinə yollanmışdır.






# Şəhidin döyüş yolu

Məhəmməd Umudov 1992-ci ildə Xocalı faciəsindən sonra yaşının az olmasına baxmayaraq könüllü olaraq cəbhə bölgəsinə yollanıb. Cəbrayıl, Tərtər, Ağdərə istiqamətlərində rəşadətlə vuruşub. O, qeyd olunan istiqamətlərdəki əməliyyatlarda iştirak etmiş, torpaqlarımızın düşmən tapdağından azad edilməsində böyük şücaət göstərmişdir. 1992-ci il iyul ayının 30-da Ağdərənin Kasapet kəndindəki döyüşlərdə əsgər yoldaşlarını qoruyarkən qəhrəmancasına həlak olmuşdur. Şəhidin nəşi döyüş meydanından avqustun 9-da çıxarılaraq, Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.








# QARABAĞ AZƏRBAYCANDIR!

# Şəhid
# Verdiyev İsax Ədalətoviç

21 sentyabr 1997-ci ildə Rusiya Federasiyasının
Kalininqrad şəhərində anadan olmuşdur.





UNEC-in «Rus iqtisad məktəbi»nin məzunu

# Şəhidin məktəb həyatı

İsax 2004-cü ildə Rusiya Federasiyasının Kaliningrad şəhərində 8 saylı məktəbə daxil olaraq ibtidai təhsilini orada almışdır. 2007-ci ildə ailəsi ilə birgə Azərbaycana, ata yurdu Tərtərə, 2008-ci ilin payızında isə Sumqayıta köçürlər, burada 3 nömrəli orta məktəbdə təhsilini davam etdirir. Məktəb vaxtı özünü nizam-intizamlı, ünsiyyətcil, şən bir yeniyetmə kimi tanıtmışdır. Müəllimləri tərəfindən həmişə tərifl ənib, dərslərini çox yaxşı oxuyurdu. Futbol idman növünü çox sevirdi: həm özü oynayır, həm də əsl azarkeş idi. Cavanların çoxu kimi, uşaq vaxtından avtomobillərə marağı olub.







# Şəhidin universitet həyatı

2015-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin «Rus iqtisad məktəbi»nin «İqtisadiyyat» ixtisasına qəbul olunmuşdur. Çox tərbiyəli, nizam-intizamlı tələbə, vətənpərvər gənc idi. 2018-ci ildə 3-cü kursu bitirdi. Lakin növbəti tədris ilində maliyyə problemləri ilə bağlı təhsilini dondurub, Türkiyəyə yollandı. Qısa müddət sonra yenidən Azərbaycana qayıtdı.





# Şəhidin döyüş yolu

İsax Verdiyev 2020-ci ildə iyulun 20-də Tərtər rayonunun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi xidmətə çağırılıb. Üç aylıq təlimlərdən sonra ad günündən bir gün öncə 20 sentyabr tarixdə bilavasitə hərbi xidmətə başlayıb.

6 oktyabr tarixində Füzuli rayonunun Alxanlı kəndi uğrunda gedən döyüşlərdə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərkən şəhid olmuşdur.

Sumqayıt şəhərinin Fəxri Xiyabanında dəfn olunub.





2018-ci ilin dekabr ayında ailə həyatı qurdu. 2019-cu ildə oğlu dünyaya gəldi. Övladının bir yaşı olanda övladı ilə birgə hərbi geyimdə şəkil çəkdirmişdi.

## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Verdiyev İsax Ədalətoviç ölümündən sonra «Vətən uğrunda» (15 dekabr 2020) və «Füzulinin azad olunmasına görə» (26 dekabr 2020) medalları ilə təltif edilmişdir.







# Şəhid
# Vəliyev Firdovsi Fazil oğlu

15 avqust 1966-cı ildə Ağdam rayonunun
Şelli kəndində anadan olmuşdur.



UNEC-in «Mühasibat uçotu» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Firdovsi Vəliyev 1973-cü ildə Ağdam rayon Şelli kənd orta məktəbinin 1-ci sinfinə daxil olub. 1983-cü ildə orta məktəbi bitirib. Orta məktəbdə oxuduğu illərdə müəllimlərinin sevimlisi olub. O, mehriban, çalışqan, sözünə dürüst və sadiq şagird olduğu üçün müəllimləri onun barəsində fəxrlə danışardılar. Hətta bir dəfə ədəbiyyat dərsində ədəbiyyat müəllimi Əfqan müəllim 2 şagird arasında müqayisə edib, o biri şagirdə etibar etmədiyini bildirib. Ancaq yeganə qızını Firdovsi ilə bir qatara mindirib uzaq bir səfərə yola salaram və heç bir nigarançılıq keçirtmərəm söyləmişdir.







# Şəhidin universitet həyatı

1983-cü ildə öz arzusu ilə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki UNEC) «Mühasibat uçotu» fakültəsinin qiyabi şöbəsinə qəbul olub. 1985-1987-ci illərdə hərbi xidmətdə olmuş, 1990-cı ildə Universiteti bitirmişdir. Peşəsinə mükəmməl yiyələnmək üçün daima öz üzərində çalışmışdır.

# Şəhidin əmək fəaliyyəti

1990-cı ildən Ağdam rayonunda Şəhər İstehlak Cəmiyyətləri Birliyində mühasib vəzifəsində işə başlayir. İşlədiyi müddət ərzində bütün kollektivin hörmətini, rəğbətini qazanmışdır.



# Şəhidin döyüş yolu

Anası Vəliyeva Elgülün xatirələri:

1991-ci ildə Şirin Mirzəyevin yaratdığı könüllülər batalyonuna kəndimizdən ilk könüllü olaraq Firdovsi yazıldı. O, qorxmaz, cəsur, mərd oğlan idi. Heç nədən qorxmurdu. 1991-ci ildə Əsgəran rayonundan qaçmış 26 rus əsgərini gecə saat 3 radələrində tərk-silah edərək batalyona təhvil vermişdir. Döyüş barəsində evdə heç nə danışmırdı. Döyüş yoldaşları deyirdilər ki, düşmən güllə atarkən Firdovsi aşağı əyilmir, dik gedirdi. Bir dəfə ona dedim ki, ay oğul, düşmən güllə atarkən aşağı əyil səni vurarlar. Onun sözü mənə o oldu ki, kişi öz torpağında əyilə-əyilə getməz. Erməni kimdir ki, mən onun qarşısında əyiləm.

Vəliyev Firdovsi 1992-ci ildə Çıldıran, Qarakənd, Naxçıvanik, Əsgəran, Qaraqaya döyüşlərində qəhrəmancasına iştirak etmişdir. Xocalı faciəsi baş verdiyi gün Şelli kəndi yaxınlığında olan Qaraqayada mühasirəyə düşmüş xocalıları döyüş yoldaşları ilə birgə xilas etmişdir. Donuz fermasına doldurulmuş 35 qadın, qoca və uşağı yağış kimi yağan güllələr altında oradan çıxartmışlar. 26 fevral 1992-ci ildə yağı düşmənin pulemyotdan açdığı atəş nəticəsində şəhid olmuşdur.

Ölümündən sonra Səriyyə Müslümqızının «Qar üstünə qan yağırdı», Sarvan Ağayevin «Şəhid şəhərin şəhid oğulları», «Ağdamın qibləgahı», Qara Bəndalıoğlunun «Şaxta vurmuş çiçəklər» kitablarında şəhidimiz haqqında məqalələr yazılmışdır.





Subay idi. Müharibə qurtarsın, Azərbaycan bayrağını Xankəndiyə sancandan sonra evlənəcəm deyirdi.



# Təltifləri

Ümummilli Lider Heydər Əliyev tərəfindən göstərdiyi igidliyə görə Vəliyev Firdovsi Fazil oğlu ölümündən sonra «Azərbaycan Bayrağı» (1997) ordeni ilə təltif edilmişdir.



# Şəhid
# Zeynalov Teymur Tağı oğlu

28 mart 1993-cü ildə
Bakı şəhərində anadan olmuşdur.



UNEC-in «Maliyyə» fakültəsinin məzunu

# Şəhidin məktəb həyatı

Orta təhsilini Binəqədi rayon Vahid Əzizov adına 30 saylı orta məktəbdə almışdır. Orta məktəbdə dərslərindən əla qiymətlər alırmış.

Teymur uşaqlıqdan idmanı çox sevər, karate üzrə məktəblərarası yarışlara gedərmiş. Əksər yarışlarda I və II yerləri tutaraq mükafatlar, diplomlar əldə etmişdir. Karate ilə yanaşı futbol ilə də maraqlanırmış. Ən çox sevdiyi futbol klubu isə İtaliyanın «Milan» klubu imiş.





# Şəhidin universitet həyatı

2011-ci ildə 640 bal toplayan Teymur Azərbaycan Dövlət İqtisad Universitetinin «Maliyyə» ixtisasına qəbul olaraq bakalavr pilləsi üzrə təhsil almışdır. 2017-2019-cu illərdə isə Azərbaycan Dövlət İqtisad Universitetində "Bank işi" ixtisaslaşması üzrə magistr təhsilini uğurla başa çatdırmışdır. Teymur həm məktəb, həm tələbə, həmçinin magistrant olduğu dövrdə müxtəlif xarici dilləri öyrənməyi sevirmiş.

# Şəhidin əmək fəaliyyəti



Teymur Zeynalov əmək fəaliyyətinə 2014-2015-ci illərdə Yevlax şəhərində 708 saylı hərbi hissədə Maddi-texniki təminat bölməsində çilingər vəzifəsində xidmət göstərməklə başlamışdır. 2015-ci ilin yanvarından etibarən Vətən müharibəsinin başlanmasına kimi SOCAR AQŞ MMC-nin Sahil qəsəbəsində yerləşən "Bulla" İstehsalat və Təchizat sahəsində mühasib köməkçisi və materiallar üzrə mühasib vəzifələrində çalışmışdır.

# Şəhidin döyüş yolu

Evin tək oğlan övladı olmasına baxmayaraq 29 sentyabrda Vətən müharibəsinə əsgər kimi yola düşən Teymur Cəbrayılın işğaldan azad olunmasında iştirak etmişdir. 24 oktyabr 2020-ci il tarixində isə Füzuli rayonunun işğaldan azad olunması uğrunda gedən şiddətli döyüşlərdə yaralanan və şəhid olan yoldaşlarını Qarğabazar istiqamətindən çıxararkən özü də həmin yerdə qəhrəmancasına şəhid olmuşdur. Yanlarında partlayan mərmi onun həyatına son qoymuşdur.







Teymur 2019-cu ildə ailə həyatı qurmuşdu

## Təltifləri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Zeynalov Teymur Tağı oğlu ölümündən sonra «Vətən uğrunda» (15 dekabr 2020) medalı ilə təltif edilmişdir.




QARABAĞ AZƏRBAYCANDIR!

# Mündəricat


| | |
|---|---|
| Şükürov Şahlar Əvəz oğlu | 4 |
| Mirzəyev Yusif Əli oğlu | 8 |
| Cəbizadə Əbil Qədir oğlu | 10 |
| Cəbrayılov Nazim İbrahım oğlu | 14 |
| Dadaşov Tural Sabir oğlu | 18 |
| Eyvazlı Məzdək Əli oğlu | 22 |
| Əbilhəsənov İlqar Yusif oğlu | 26 |
| Ələkbərov Əli Ələkbər oğlu | 30 |
| Əlıyev Eldar Süleyman oğlu | 34 |
| Əliyev Etibar Allahverdi oğlu | 38 |
| Əsədli Əsəd Mahir oğlu | 40 |
| Əsgərov Rəmzi Əsgər oğlu | 44 |
| Əsgərov Rüfət Qabil oğlu | 46 |
| Əzizov Habil Kommunar oğlu | 50 |
| Hacımahmudova Qaratel Şəmsi qızı | 54 |
| Hacıyev Ülvi Şirin oğlu | 58 |
| Heybətov Ağa Əmi Elçin oğlu | 62 |
| Həmidov Mixail Hamletoviç | 66 |
| Hüseynov Baxış Fərrux oğlu | 70 |
| İskəndərov Əhmədağa Novruz oğlu | 74 |
| Kazımlı Mürsəl Kamal oğlu | 78 |
| Qarayev Anar Çingiz oğlu | 82 |

| | |
|---|---|
| Qarayev Süleyman Əlbağış oğlu | 86 |
| Quluyev Nofəl İlham oğlu | 90 |
| Qurbanlı Elçin Çərkəz oğlu | 94 |
| Məcidzadə Teymur Tehran oğlu | 98 |
| Məmmədov Bəhruz Tahir oğlu | 102 |
| Məmmədov Elşən Vaqif oğlu | 106 |
| Mirzəliyev Aqil Mehman oğlu | 110 |
| Mirzəyev Mahir Sabir oğlu | 114 |
| Muradov Hüseyn Fərhad oğlu | 118 |
| Namətov Naib Firqət oğlu | 122 |
| Rəcəbov Şamil Kamil oğlu | 126 |
| Rəsulov Əli Hidayət oğlu | 130 |
| Rzayev Fuad Məmmədəli oğlu | 132 |
| Səfərov Saleh Səfər oğlu | 134 |
| Sultanov İlyas Mehralı oğlu | 136 |
| Şahverdiyev Böyükağa Savalan oğlu | 140 |
| Şıxməmmədov Hikmət Azər oğlu | 144 |
| Şirinov Aslan Sərdar oğlu | 148 |
| Umudov Məhəmməd Eldar oğlu | 152 |
| Verdiyev İsax Ədalətoviç | 156 |
| Vəliyev Firdovsi Fazil oğlu | 160 |
| Zeynalov Teymur Tağı oğlu | 164 |

**UNEC Şəhidləri. "İqtisad Universiteti" Nəşriyyatı. Bakı - 2021**

*Kitab Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Şəhid məzunlarına həsr edilmişdir. Kitabda Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan, Şəhid olmağı özünə şərəf bilən, daxilində yüksək vətənpərvərlik, cəsurluq, sonsuz Vətən sevgisi olan və bu amalla Vətənə canını fəda etmiş hər bir Şəhid haqqında məlumat verilir. Vətənə olan bu sevgi beşikdən, ana laylasından, ailədən, orta və ali məktəbdən başlanır.*
*Şəhidlər ölməz, Vətən bölünməz! Nə qədər illər keçəcək, ancaq gələcək nəsillər onları unutmayacaq, hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Onlar ölməyib, onlar hər birimizin ürəyində daim yaşayacaqlar. Kitab UNEC-in əməkdaşları, tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

© 2020 Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) – bütün hüquqları qorunur.

# UNEC Şəhidləri

**Buraxlışa məsul:**

**Şaiq Əsgərov**
İnzibatı və təşkilatı məsələlər
üzrə prorektor, dosent.

**Korrektorlar:** Kamil Hüseynov
Səbiyə Səmimi
Südabə Manafova

**Tərtibatçı-dizayner:** Aytac Novruzlu

Çapa imzalanıb xxxx
Formatı XXXX
Fiziki çap vərəqi XXXX
Sifariş xxxx
Tiraj xxxxx

UNEC

AZƏRBAYCAN
DÖVLƏT
İQTİSAD
UNİVERSİTETİ